## Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

14
APREL
2020-ci il

№ 56 (4187)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTANDA TÜRK ZİRVƏSİNİN ƏNDİŞƏSİ - AZƏRBAYCAN PREZİDENTİNİN TƏŞƏBBÜSÜNÜ ANTİ-RUSİYA OVQATI KİMİ YOZMAQ CƏHDİ...

■ səh. 4 ■




■ səh. 7 ■

## Ermənistan iqtisadiyyatı koronavirus həmləsinə dözmədi - Paşinyan ölkədə işi bərpa edir, xalq virusla baş-başa buraxılır...

**Azərbaycanın koronavirusla mübarizəsində misilsiz nəticə - təsdiqlənmiş xəstə sayı ilə sağalanlar bərabərləşməyə başlayır**

■ səh. 11 ■

Qondarma "DQR"də qanunsuz, saxta, koronavirus şəraitində, üstəlik, fövqəladə vəziyyətdə "seçki" - dünya "seçki"ni qəti dayandırıcı tədbirlərə hələ də əl atmır...

■ səh. 4 ■

Koronavirus Ermənistanın işğal siyasətinin üzərindən xətt çəkir - Paşinyan hökuməti epidemiyanı nəzarətdə saxlaya bilmir, ölkə iqtisadi fəlakət astanasında...

■ səh. 9 ■

**Koronavirus dövründə Bakı-Tiflis-Qars Mərkəzi Asiya ölkələri iqtisadiyyatının da xilas yoluna çevrilir**

■ səh. 8 ■

Paşinyanın hərbi-bioloji laboratoriya məsələsində Rusiya-ABŞ balansı yaratmaq cəhdi? Rusiyanın yeni laboratoriyaları...

■ səh. 7 ■

Qlobal iqtisadi tənəzzülün qarşısının alınmasında neft amili... Enerji sahəsinin "güc mövqeyi"nə qayıtmasının vacibliyi gündəmdə...

■ səh. 12 ■

Təhsil Nazirliyindən maraqlı sosial layihə - işini itirən valideynlərə dəstək kampaniyası...

■ səh. 14 ■

İnsanlarımızda qəribəlik- virusa görə yardım alanda böyük fəallıq, karantin qaydalarının icrasında pərakəndəlik...

■ səh. 11 ■



**Azərbaycan Prezidentinin təşəbbüs etdiyi Türk zirvəsi daha bir tarixi layihənin başlanğıcı ola bilər - BTQ-nin Orta Asiyayadək uzadılması...**

■ səh. 3 ■

**Virusla mübarizə dövründə ÜST-lə münasibətlərdə Azərbaycanın bir çox ölkədən fərqi - könüllü yardım və donor müqaviləsi...**

■ səh. 10 ■



**Azərbaycanda koronavirusla mübarizə fonduna 65, Ermənistanda cəmi 1.3 milyon dollar - böyük fərqin səbəbi...**

■ səh. 5 ■

■ səh. 2 ■

"Türk dövlətlərinin inteqrasiyası prosesində Azərbaycanın moderatorluq gücü ən pozitiv mənalarda getdikcə özünü daha parlaq nümayiş etdirəcək"



■ səh. 6 ■

Rusiyada yaşayan azərbaycanlılar Azərbaycan-Rusiya sərhədinə niyə toplaşır - səfirin çağırışı...



■ səh. 15 ■

Koronavirusla mübarizə dövründə ünvanlı yardım alan azərbaycanlı ailə üzvlərinin sayı 40 min artdı



■ səh. 13 ■

Koronavirusdan bir dəfə sağalanlar yenidən yoluxa bilərmi - həkim izahı...



■ səh. 15 ■

Koronavirusla mübarizə dövründə Bakıda parklama problemi - avtomobillər həyətlərdə, FHN narazılıq etməkdə, işləməyənlər maşınlarını harada saxlasın...





# Azərbaycanda daha 50 koronavirusa yoluxma qeydə alındı, 39 nəfər sağaldı, 1 nəfər vəfat etdi

**Azərbaycanda 50 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 39 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1955-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1148 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 289 nəfəri müalicə olunaraq sağalıb, 12 nəfər vəfat edib, 847 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Həmin şəxslərdən 25 nəfərin vəziyyəti ağır, 30 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ölkəmizdə müxtəlif karantin zonalarına yerləşdirilən 2373 nəfərin müayinəsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

# Aydın Quliyev: "Türk dövlətlərinin inteqrasiyası prosesində Azərbaycanın moderatorluq gücü ən pozitiv mənalarda getdikcə özünü daha parlaq nümayiş etdirəcək"

**Türk Şurasının fövqəladə Zirvəsinin Bakıda və Azərbaycanın təşəbbüsü ilə keçirilməsi tarixi əhəmiyyətli hadisədir və özündən sonra yeni hadisələr doğurmaq gücündədir.**



Bu sözləri baki-xeber.com-a politoloq Aydın Quliyev Azərbaycan Prezidentinin təşəbbüsü ilə Türk Şurasının fövqəladə Zirvəsinin bu günlərdə paytaxtımızda videokonfrans şəklində keçirilməsinin əhəmiyyətini şərh edərkən deyib.

Politoloqun sözlərinə görə, maraqlıdır ki, Türk dövlətləri bu gün koronavirusa yoluxma və sağalma sayına görə dünyada nisbətən ən yaxşı vəziyyətdə olan ölkələr sayılsa da, bu zirvə Türk ölkələrinin bəşəriyyətin taleyi üçün daha çox narahat olduqlarını və daha çox iş görmək istədiklərini nümayiş etdirdi:"Çox qiymətli tarixi faktdır ki, Türk dövlətləri Şurası koronavirusla mübarizəni məxsusi olaraq müzakirəyə çıxarmış ilk beynəlxalq təşkilat kimi tarixə düşdü. Bu əlamətdar zirvənin Azərbaycanın təşkilatda sədrliyi dövrünə düşməsinin bir ayrıca mənası var. Azərbaycanın bu təşəbbüskarlığı qəti şəkildə sübut etdi ki, ölkəmiz ümumtürk inteqrasiya proseslərinə həqiqətən çox şeylər vermək gücündədir və verəcək də. Azərbaycan üzvü olduğu bütün beynəlxalq təşkilatlarda yeniləşdirmə, təkmilləşdirmə və staqnasiya gücünə malik olduğunu Türk Şurasında da nümayiş etdirdi".

Aydın Quliyev daha sonra bu mövqeyini konkret misallara qısaca baxmaqla əsaslandıraraq deyib:"Azərbaycan indiyədək İslam Əməkdaşlıq Təşkilatına sədrliyi dövründə xeyli yeniləşdirici addımlar atıb və bu qurum özünün təşkilatlanmasında bir sıra yeniliklərə görə Azərbaycana borcludur. Azərbaycan BMT TŞ-də bir il qeyri-daimi üzv oldu və sadə dildə desək, "bu təşkilat üçün yeni səhifələr yazdı". BMT-nin islahatlarla təkmilləşdirilməsinə dair Azərbaycanın bir neçə maraqlı təşəbbüsləri və təşəbbüslərə dəstək jestləri var. Nəhayət, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə çox böyük yaradıcılıq gücü nümayiş etdirməkdədir".

Eyni yaradıcı və təkmilləşdirici gücünü Azərbaycanın Türk Dövlətləri Şurasına sədrliyi dövründə də göstərməkdə olduğunu deyən politoloq bildirir ki, Bakıda Türk zirvəsi ilə Azərbaycan indiki çətin dövrdə dünya dövlətlərinə koronavirusla mübarizədə öz dəyərli təcrübələrini başqaları ilə bölüşmək şansı verdi:"Bu mənada, koronavirusla mübarizədə Azərbaycanın öz milli təcrübəsinin digər dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edəcəyi şəksizdir. Türk dövlətlərinin inteqrasiya prosesində Azərbaycanın moderatorluq gücü ən pozitiv mənalarda getdikcə özünü daha parlaq nümayiş etdirəcək".

***Baki-xeber.com***



## Türkiyə səfirliyindən Ermənistana humanitar tibbi yardım iddialarına cavab - Hər hansı bir yardımdan söhbət gedə bilməz

**"... insani yardım olaraq, Türkiyədə yaşayan 70-ə yaxın erməni vətəndaşın Gürcüstan üzərindən öz ölkələrinə dönməsi təmin edilib".**

Baki-xeber.com xəbər verir ki, bu sözləri koronavirus pandemiyası ilə bağlı Türkiyənin Ermənistana yardım göndərəcəyi barədə iddialara cavabında Türkiyənin Azərbaycandakı Səfirliyinin mətbuat müşaviri Hüseyn Altınalan bildirib.

Hüseyn Altınalan mətbuatda yayılan xəbərə münasibət bildirərək deyib ki, bu, sadəcə, insanlıq adına atılmış addımdır: "Türk səlahiyyətliləri, insani yardım olaraq, Türkiyədə yaşayan 70-ə yaxın erməni vətəndaşın Gürcüstan üzərindən öz ölkələrinə dönməsi təmin edib. Bundan başqa yardım yoxdur".

Xatırladaq ki, son günlər bəzi kütləvi informasiya vasitələri Ermənistanın pandemiya ilə bağlı Türkiyə dövlətindən yardım istəməsi və bu istəyin təmin olunması barədə birtərəfli xəbər yayıb.

Lakin Türkiyə rəsmiləri ilə yanaşı, Ermənistan XİN-in sözçüsü Anna Naqdalyan da belə bir xahişin və təminatın olmadığını bildirib.

***Baki-xeber.com***

# Azərbaycanda xüsusi karantin rejimi ilə bağlı icazə sistemi bir sıra ölkələrin diqqətini çəkdi

**Azərbaycanda xüsusi karantin rejimində insanların hərəkətini idarə etmək üçün yaradılmış icazə sistemi (https://icaze.e-gov.az/ portalı) artıq bir sıra ölkələrin marağına səbəb olub.**

"Trend"in məlumatına görə, artıq bəzi ölkələr bu sistemi tətbiq etmək istəyir.

Bunların sırasında Rusiya, Belarus, Qazaxıstan, Özbəkistan, Birləşmiş Ərəb Əmirlikləri də var.




Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzi Daxili İşlər Nazirliyi ilə birgə "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"ni ərsəyə gətirib.

İcaze.e-gov.az portalı yalnız müvafiq dövlət və özəl təşkilatlarının əməkdaşlarının xidməti zərurətlə əlaqədar hərəkətlərinin təmin edilməsi məqsədilə onlar üçün icazənin alınmasını təmin edir.

Xatırladaq ki, aprelin 5-də koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi çərçivəsində ölkədə hərəkət məhdudiyyətləri tətbiq olunub.

Əhalinin həyat və sağlamlığının qorunmasını, dövlət qurumlarının və həyat təminatı obyektlərinin fasiləsiz işini, habelə yaranmış vəziyyətdə iqtisadi subyektlərin zəruri həddə fəaliyyətini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah 20 aprel 2020-ci il saat 00:00-dək məhdudiyyət tətbiqi ilə bağlı qərar verib.

Aşağıdakı şəxslər barəsində məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir:

dövlət orqanlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlətin adından yaradılan publik hüquqi şəxslərin işə cəlb olunan əməkdaşları (2 nömrəli siyahı əlavə olunur);

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 mart tarixli 120 nömrəli Qərarı ilə müəyyən edilmiş istiqamətlərdə fəaliyyətlərinin davam etdirilməsinə icazə verilmiş özəl hüquqi şəxslərin əməkdaşları və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs və onun işçiləri;

fəaliyyətinin davam etdirilməsinə icazə verilməmiş özəl hüquqi şəxslərin mühafizəsi və texniki təhlükəsizliyinin təmin edilməsi üçün tələb olunan əməkdaşları.

"ASAN Könüllüləri" İctimai Birliyi, "Regional İnkişaf" İctimai Birliyi, "Aqrar İnkişaf Könüllüləri" Hərəkatı, "Bir" tələbə-könüllüləri, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin könüllülərinin hərəkətinə onlar barədə məlumatlar "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol verilir.

# Azərbaycan Prezidentinin təşəbbüs etdiyi Türk zirvəsi daha bir tarixi layihənin başlanğıcı ola bilər - BTQ-nin Orta Asiyayadək uzadılması...

**"Baş verənlər Xəzər üzərindən nəqliyyat koridorunun mühüm əhəmiyyət kəsb etdiyini bir daha ortaya qoyub". Bunu Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**




R. T. Ərdoğan onu da bildirib ki, Türkiyə, Azərbaycan və Gürcüstan arasında yük daşımaları üçün qurulan dəmir yolunun Orta Asiyaya qədər uzadılması mümkündür: "Bakı-Tbilisi-Qars dəmir yolu ilə gündəlik 3 min 500 ton yük daşınmasına çalışırıq".

Bu nəqliyyat koridoru ilə yüklərin daşınması prosesinin sadələşdirilməsi, müəyyən güzəştlər edilməsinə ehtiyac olduğunu qeyd edən R. T. Ərdoğan Türk Şurası ticarət və nəqliyyat nazirlərinin də videokonfransının keçirilməsini təklif edib.

Hər bir dövləti dövlət edən onun kommunikasiya imkanlarıdır. Bu sırada dəmir yolunun əhəmiyyəti danılmazdır. İstənilən dövlətin birliyi onun nəqliyyat infrastrukturunun nə dərəcədə inkişaf etməsinə bağlıdır. Tarixə nəzər salsaq, ABŞ-ın superdövlətə çevrilməsi onun ərazisində dəmir yollarının sürətli inşasına bağlıdır. Dəmir yolları ABŞ-ı birləşdirdi, onu monolit bir dövlətə çevirdi. Son illər nəqliyyat sahəsində bir sıra proseslər Azərbaycanın dünyaya çıxışını xeyli asanlaşdırıb. BTQ dəmir yolunun işə salınması yeni imkanlar açıb. Qədim İpək Yolunun bərpası isə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə daşınacaq yükün həcminin birə on artmasına şərait yaradıb.

## Azər Allahverənov: "Hesab edirəm ki, məsafə baxımından ən qısa yol Xəzər üzərindən keçir"

Bütün bu deyilənlərlə yanaşı, BTQ-ni Orta Asiyaya qədər uzatmaq mümkündürmü? Sözügedən ideya reallaşsa, bu, Azərbaycana nə vəd edir?

Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, prinsipcə, BTQ-ni Orta Asiyaya qədər uzatmaq mümkündür: "Bu gün sözügedən proses müəyyən mənada gedir. Belə ki, Çindən və Orta Asiya ölkələrindən yüklər Xəzər üzərindən bərə yolu ilə daşınır, ondan sonra daşınma BTQ ilə həyata keçirilir. Beləcə yüklər Avropa və yaxud da əks istiqamətdə daşınır. Ümumilikdə, daşınacaq yüklərin həcminin artırılması ilə bağlı işlər görülür. Məlum koronavirusla əlaqədar yükdaşımalar bir qədər azalıb. Bu, beynəlxalq yükdaşımalara da öz təsirini göstərir. Məsələ ondadır ki, karantin rejimi səbəbindən gediş-gəliş məhdudlaşdırılıb. Sözügedən proseslər tranzit daşımalara və ixracata öz təsirini göstərir. Ancaq məlum məsələdir ki, belə vəziyyət uzun çəkməz. Vəziyyət yoluna düşəndən sonra BTQ ilə bağlı əlavə layihələrin gündəmə gəlməsi istisna olunmur.

*"Bunu reallaşdırmaq mümkün olsa, o zaman Azərbaycanın tranzit daşımalardan əldə etdiyi gəlirlərin həcmi daha da artacaq"*

Sözügedən dəmir yolunun Orta Asiyaya qədər uzadılması mümkündür. Nəzərə almaq lazımdır ki, sözügedən istiqamətdə yükdaşıma ilə bağlı potensial böyükdür. Bu ideya ətrafında bir neçə dövlət danışıqlar apara bilər. Hesab edirəm ki, məsafə baxımından ən qısa yol Xəzər üzərindən keçir. Bunu reallaşdırmaq mümkün olsa, o zaman Azərbaycanın tranzit daşımalardan əldə etdiyi gəlirlərin həcmi daha da artacaq".

***Vidadi ORDAHALLI***

# Prezident Əliyev Türk Şurasının tarixində yeni fərqləndirici fakta imza atdı - koronavirusla mübarizəni müzakirə edən ilk beynəlxalq təşkilat...

**Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunub.**




Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş görüşünü keçirir: "Bildiyiniz kimi, keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü Bakıda keçirildi. Azərbaycan bu Zirvə görüşündə sədrliyi öz üzərinə götürdü. Dərhal Azərbaycan sədr ölkə kimi fəaliyyətə başladı. Sədrlik etdiyimiz dövrdə dünyada təşkilatın nüfuzunun daha da artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində səylər göstəririk. Koronavirus xəstəliyi sərhəd tanımayaraq dünya boyunca yayılmış və faciəvi nəticələrə gətirib çıxarmışdır. Pandemiya səbəbindən ölkələrimizdə və dünyada həyatını itirənlərə rəhmət diləyir, onların yaxınlarına başsağlığı verir və yoluxanların tezliklə şəfa tapmasını arzulayıram.

Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir. Bu, bizim nümunəvi səviyyədə olan həmrəyliyimizin növbəti bariz təzahürüdür. Bizi birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır.

Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır"

Ölkə başçısı onu da qeyd edib ki, fövqəladə Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atdığımız addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birimizə dəstək göstərilməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsidir: "Mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. Təşkilat olaraq Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir".

## Məhərrəm Zülfüqarlı: "Bu, Türk Şurasının beynəlxalq miqyasda nüfuzunu artıracaq"

Bütün bu deyilənlərlə yanaşı, sözügedən Zirvə görüşündə dünyada ilk dəfə olaraq koronavirusla mübarizənin müzakirə olunması Türk Şurasının beynəlxalq nüfuzuna necə təsir edəcək?

*"Müzakirələrin koronavirusa həsr olunması vacib hadisədir"*

Məsələyə münasibət bildirən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, sözügedən müzakirələr Türk Şurasının beynəlxalq nüfuzunun artmasına təkan verəcək: "Məsələ ondadır ki, koronavirus pandemiyası ortaya çıxandan sonra bir sıra ölkələr, o cümlədən, özünü demokratik sayan dövlətlər fərdi mübarizəyə başladılar. Hətta Avropa İttifaqı ölkələri də öz sərhədlərinə çəkilərək mübarizəni fərdi şəkildə aparmağa başladılar. Bu mənada, Türk Şurasının Zirvə görüşünün koronavirusa həsr olunması böyük hadisədir. Türk dövlətlərinin pandemiya ilə mübarizədə bir-birinə dəstək verməsu, hətta pandemiya yayılarkən Türkiyə Prezidentinin Azərbaycana gələrək bir sıra sənədlərə imza atması, sərhədlərlə bağlı müzakirələrin aparılması ciddi faktordur. Bütün bunlar onu göstərir ki, Azərbaycan da daxil olmaqla, türk dövlətlərini birləşdirən Türk Şurası bu sahədə öz üzvlərinə dəstək verən ilk beynəlxalq qurumdur. Hesab edirəm ki, bu, Türk Şurasının beynəlxalq miqyasda nüfuzunu artıracaq. O baxımdan, müzakirələrin koronavirusa həsr olunması vacib hadisədir".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunmuşdu.**

# Ermənistanda Türk Zirvəsinin əndişəsi - Azərbaycan Prezidentinin təşəbbüsünü anti-Rusiya ovqatı kimi yozmaq cəhdi...



Bütün dünya tərəfindən müsbət qarşılanan bu təşəbbüslə bağlı Ermənistanın ciddi narahatlıq keçirdiyi məlum olub. Həmin ölkənin KİV-ində İlham Əliyevin təşəbbüsünü anti-Rusiya ovqatı kimi qələmə verməyə çalışırlar. Daha çox bu Zirvəni Putinin bugünlərdə etdiyi çıxış zamanı koronavirusla mübarizə ilə bağlı tarixdəki türk tayfaları ilə aparılan müharibələri örnək kimi göstərməsi ilə əlaqələndirməyə çalışırlar.

Qeyd edək ki, Rusiya prezidenti Vladimir Putin son açıqlamalarının birində koronavirusla bağlı danışarkən peçeneq və qıpçaq hücumlarını yada salıb və qubernatorlara bunları deyib:"Hər şey ötüb keçir, bu da keçəcək. Ölkəmiz dəfələrlə ciddi sınaqlardan keçib: həm peçeneqlər, həm də qıpçaqların çox cəhdi ilə rastlaşmışıq, Rusiya hər şeyin öhdəsindən gəlib..."

## *Qabil Hüseynli: "Bu cür uğurlu çıxışı, təşəbbüsü həzm edə bilməyən ermənilərin əlindən yalnız tədbirə qara yaxmaqdan başqa nəsə gəlməyib"*

İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşü ilə Putinin məlum çıxışı arasında uyğunluq axtarmaq nə dərəcədə məntiqli sayıla bilər? Politoloq Qabil Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, biz bununla növbəti erməni yalanı ilə üz-üzə qalırıq:"Azərbaycan Prezidenti Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri kimi həmin konfransı keçirib. Məlumdur ki, bu formatda mütəmadi görüşlər keçirilir. Budəfəki toplantı fövqəladə sayılıb. Çünki dünyanı bürüyən pandemiya zamanına təsadüf edib. Məhz buna görə videokonfransın əsas mahiyyəti də pandemiyanı müzakirə etməkdən ibarət olub. Həmin videokfransın stenoqramına baxın və görün, heç orada bir cümlə də olsun Putinin çıxışına eyham varmı? Ola bilər ki, videokonfrans Putinin çıxışından sonraya təsadüf edib. Burada anti-Rusiya ovqatı axtarmaq doğru olmaz. Ermənilərin Azərbaycanın müxtəlif platformalardakı fəallığını həzm edə bilməməsindən irəli gəlir. Bunun Putinin çıxışı ilə heç bir əlaqəsi yoxdur. Qaldı ki, elə bir çıxışı etməkdə Putin sərbəstdir. Çünki öz ölkəsinin tarixindən danışıb. Rusiyanın tarixində doğrudan da qıpçaq və peçeneqlərin yürüşləri olub. Onlar da türk tayfalarıdır. Düzdür, yaxşı olardı ki, Putin tarixin müəyyən mərhələlərində olan hadisələrlə bu xəstəlik arasında müqayisə aparmayaydı. Bunu çox uğursuz müqayisə sayıram. Göründüyü kimi, ermənilər kimi araqarışdıran millətlər bu detaldan öz avantüraları üçün məharətlə istifadə etməyə çalışır.

Bu baxımdan da onların əlinə belə əsası vermək lazım deyil. Həmin konfransda İlham Əliyev bəşəri bir problem, onun həlli barədə danışıb, ölkəmizin xəstəliklə mübarizədə gördüyü tədbirləri sadalayıb və bunun dünya üçün örnək ola biləcəyini deyib. Bu cür uğurlu çıxışı, təşəbbüsü həzm edə bilməyən ermənilərin əlindən yalnız tədbirə qara yaxmaqdan başqa nəsə gəlməyib. Biz belə hallara alışmışıq. Fikir verməyib, öz işimizə davam deməliyik".

*Məhəmmədəli* ***QƏRİBLİ***

**Azərbaycanın işğal altındakı ərazilərində mövcud olan separatçı rejim koronavirus təhlükəsi ilə əlaqədar olaraq "fövqəladə rejim"in tətbiqinə başlayıb. Erməni mediasının yaydığı məlumata görə, bununla bağlı separatçıların başçısı Bako Saakyan qərar verib.**

*"...separatçıları durdurmaq üçün Azərbaycan hərbi yola əl atmalıdır"*

# Qondarma "DQR"də qanunsuz, saxta, koronavirus şəraitində, üstəlik, fövqəladə vəziyyətdə "seçki" - dünya "seçki"ni qəti dayandırıcı tədbirlərə hələ də əl atmır...

B.Saakyanın "mətbuat xidməti" bildirib ki, separatçı lider Dağlıq Qarabağdakı əhaliyə müraciətlə, koronavirus pandemiyasından qorunmaq üçün fövqəladə rejimin tətbiqi ilə bağlı "fərman" imzaladığını elan edib. Fövqəladə rejimlə əlaqədar olaraq qondarma qurumun "dövlət naziri" Qriqoriy Martirosyan komendant təyin edilib. Tətbiq olunan rejim 30 gün - 12 apreldən 12 mayadək davam edəcək. Erməni mediası 14 apreldə Dağlıq Qarabağda qondarma rejimin "prezidenti" postuna keçiriləcək "seçki"lərlə (ikinci tur) bağlı məsələyə də aydınlıq gətirməyə çalışıb. Bildirilib ki, Qarabağdakı qondarma qurumun rəhbərliyi "seçki"lər günü bütün sanitar normalara əməl olunacağını deyib.

Onu da qeyd edək ki, işğal edilmiş Kəlbəcər və Laçın rayonlarının kəndlərində qanunsuz məskunlaşmış ermənilər arasında koronavirusa yoluxanlar var. Qondarma qurumda nə qədər adamın bu virusa yoluxması dəqiq bəlli deyil. Çünki separatçı rejim bunu gizlədir. Bütün bunlara baxmayaraq, separatçı və işğalçı tərəf "seçki" iddiasından əl çəkmir.

Göründüyü kimi, işğal olunmuş Dağlıq Qarabağda separatçıların qanunsuz "seçki" keçirdikləri, qondarma "seçki"nin saxtalaşdırmaları və bunu koronavirus şəraitində keçirmələri bəs deyil, üstəlik, fövqəladə vəziyyət rejimində də bu "seçki"ni növbəti dəfə keçirirlər. Buna baxmayaraq, hazırkı vəziyyətdə belə, dünya bu "seçki"nin dayandırılması üçün təsirli addım atmır. Buna nə qədər dözmək olar?

Məsələyə münasibət bildirən siyasi şərhçi Ramil Hüseynovun sözlərinə görə, beynəlxalq qurumların bütün bu biabırçılıqları seyr etməsi dözülməzdir: "Separatçılar bütün oyunlardan çıxır, ancaq onların dayandırılması ilə bağlı beynəlxalq birlik hərəkətə keçmir. Düzdür, bir sıra beynəlxalq təşkilatlar, dövlətlər bu günlərdə ard-arda bəyan etdilər ki, martın 31-də keçirilən qondarma "seçki"ləri tanımırlar. Ancaq hesab edirəm ki, bütün bunlar yetərli deyil. Separatçıları dayandırmaq üçün daha sərt metodlar işə salınmalıdır.

## *Ramil Hüseynov: "Beynəlxalq qurumların bütün bu biabırçılıqları seyr etməsi dözülməzdir"*



Bu məsələdə əsas məsuliyyət ATƏT-in Minsk Qrupunun üzərinə düşür. Daha dəqiq desək, həmsədr dövlətlər bunu dayandıra bilər. Ancaq, təəssüflər olsun ki, hər üç həmsədr Ermənistanla bu və ya digər dərəcədə yaxın münasibətlərə malikdir. Hətta separatçı qurumda bəzi humanitar xarakterli layihələrə vəsait ayırırlar. Bununla belə, separatçı qurumu təmsil edənlər Ermənistan pasportu ilə Avropa ölkələrini, ABŞ-ı dolaşırlar. Bax, belə bir ədalətsiz dünyada yaşayırıq. Bu baxımdan, hesab edirəm ki, separatçıları durdurmaq üçün Azərbaycan hərbi yola əl atmalıdır. Hesab edirəm ki, yalnız o halda beynəlxalq birlik hərəkətə keçəcək".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin fərmanı ilə martın 19-da Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb. Fondun yaradılmasında məqsəd koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir.**



# Azərbaycanda koronavirusla mübarizə fonduna 65, Ermənistanda cəmi 1.3 milyon dollar - böyük fərqin səbəbi...

## *Arzuxan Əlizadə: "Bu onu göstərir ki, Ermənistanda əhalinin sosial durumu çox acınacaqlıdır"*

Müşahidələr göstərir ki, sözügedən fond yaradılandan sonra ora köçürülən ianələr durmadan artır. Belə ki, Koronavirusla Mübarizəyə Dəstək Fonduna daxil olan vəsaitin məbləği 65 milyon dolları (110 milyon manat) ötür. İanələri köçürənlər arasında həm hüquqi, həm də fiziki şəxslər var. Belə ki, fonda 2753 hüquqi, 8688 fiziki şəxs ianə köçürüb. Bütövlükdə, əhalinin bütün təbəqələri imkanı daxilində fonda vəsait köçürməkdə fəallıq göstərir. Bununla bağlı cəmiyyətdə bir həmrəylik var.

Onu da qeyd edək ki, bənzər fond Ermənistanda da yaradılıb. Ancaq Azərbaycandan fərqli olaraq, Ermənistanda fonda köçürülən ianələrin məbləği çox aşağıdır. Belə ki, indiyə qədər bu məqsədlə ora cəmi 1,3 milyon dollar vəsait yığılıb. Həmin vəsaitin də 800 min dollara yaxını xarici donorların hədiyyəsidir. Əhali sözügedən məqsədlə ianə köçürməkdə maraq göstərmir. Belədə ermənilər özləri barədə elə rəy yaradırlar ki, guya onların millәti qədər təəssübkeş və həmrəy ikinci millət yoxdur.

Bütün hallarda, iki ölkə arasında ianə köçürmələrində bu qədər böyük fərqin yaranması nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən AMİP-in sədr əvəzi Arzuxan Əlizadə belə fərqin yaranmasını bir neçə amillə əlaqələndirdi: "Bu onu göstərir ki, ermənilər, adətən, kənardan dilənməyə vərdiş ediblər. Yəni özləri barədə məzlum obraz yaradıb, başqa dövlətlərdən yardım umublar. Bu, tarixən belə olub. Ən yaxşı halda, xaricdəki erməni lobbisi Ermənistana maliyyə yardımı edir. Ancaq lobbi xəttilə Ermənistana edilən yardımların məbləği əvvəlki kimi çox deyil. Get-gedə bunun həcmi azalır. Bu özünü hər il xeyriyyə məqsədilə Birləşmiş Ştatlarda keçirilən telemarafonlarda da göstərir. Məsələ ondadır ki, bu məqsədlə toplanan vəsaitlər Ermənistandakı rejim tərəfindən təyinatı üzrə xərclənmir. Belə vəziyyət Ermənistanda 20 il hakimiyyətdə olan "Qarabağ klanı" dövründə də mövcud olub, Paşinyan hakimiyyətə gələndən sonra da dəyişən bir şey yoxdur.

*"Ermənilər, adətən, kənardan dilənməyə vərdiş ediblər"*

Yəni bu məsələdə müsbətə doğru dəyişiklik baş verməyib. Digər tərəfdən, koronavirusla mübarizədə erməni ictimaiyyətinin göstərdiyi passivlik və olduqca az ianə köçürməsi onların ağır sosial durumu ilə bağlıdır. Bu onu göstərir ki, Ermənistanda əhalinin sosial durumu çox acınacaqlıdır. O səbəbdən koronavirusla mübarizə məqsədilə toplanan vəsait çox azdır. Ancaq Ermənistandan fərqli olaraq, Azərbaycanın həm iqtisadi imkanları genişdir, həm də əhalinin sosial vəziyyəti yüksəkdir. Bundan başqa, bu, Azərbaycan xalqının daha həmrəy olmasının göstəricisidir".

***Vidadi ORDAHALLI***

**Ermənistan mediasında Rusiya əleyhinə silsilə yazıların verilməsi davam edir. Bu arada erməni mediası yazır ki, Avrasiya İqtisadi İttifaqının iqtisadi əsasları yoxdur. AİI, əslində, Rusiyanın postsovet məkanında siyasi və iqtisadi təsirini saxlamaq cəhdidir.**



# Koronavirus dövründə Ermənistanda qaz, aviasiya və telekommunikasiya böhranı - hər üç böhrana görə Rusiya suçlu bilinir...

## *Elşən Manafov: "Ermənistan uğrunda Qərblə gedən geosiyasi mübarizə kontekstində Kreml güzəştə getmək istəmir"*

Müstəqillik elan edən ölkələr iqtisadi cəhətdən suveren olmağa çalışırlar, amma Moskva buna imkan vermir: "Bu, Rusiyanın, demək olar ki, bütün erməni infrastrukturlarını və böyük aktivlərini idarə etdiyi Ermənistanda xüsusilə nəzərə çarpır. Ancaq böhran dövründə bu aktivlər həm Ermənistan, həm də Rusiya üçün böyük bir yükə çevrilir və ciddi dəyişikliklərə səbəb ola bilər".

Daha sonra qeyd olunur ki, koronavirus pandemiyası artıq Ermənistanda üç böyük böhrana səbəb olub. Hər üç problemə görə də məhz Rusiya ittiham edilir: "Əvvəlcə qaz sahəsində yanğın "başladı". Dünya bazarında yanacağın qiymətinin düşməsinə və Ermənistanın qazın qiymətinin salınması təklifinə baxmayaraq, "Qazprom-Ermənistan" şirkəti tarif artımı üçün müraciət edib. Belə ləyaqətsiz davranış Rusiya-Ermənistan birliyinin, AİI-nin və digər "qardaş" sindikatların acınacaqlılığını göstərdi.

İkinci "partlayış" gözlənilmədən aviasiya sənayesində baş verdi. Məlum oldu ki, beynəlxalq tənzimləmə orqanı iki erməni aviaşirkətini lisenziyasından və Avropaya uçmaq hüququndan məhrum edib. Erməni mətbuatı bu məsələ ilə bağlı təfərrüatlara girməməyi üstün tutur. Ancaq Azərbaycan mətbuatı açıq yazır ki, bu, erməni aviaşirkətlərinin, əslində, Putinin əşpaz şirkətinin sifarişi ilə silah tədarük edərək Afrika ölkələrinə şübhəli uçuşlar etməsi ilə əlaqədardır. Ermənistan hökuməti Avropanın ucuz hava yollarını cəlb etməyə başlayan kimi, erməni şirkətlərinin işləri qəfildən pisləşdi. Bunda Moskvanın əli olması mümkündür.

Birdən-birə "yıxılan" üçüncü sahə isə telekommunikasiya sahəsidir. Bu gün məlum oldu ki, Ermənistanın "Ucom" şirkətinin rəhbərliyi və mütəxəssislərinin əksəriyyəti istefa ərizələrini təqdim ediblər. "Ucom" Ermənistanın rabitə bazarındakı yeganə erməni şirkətidir. Digər ikisi - "Beeline" və "MTS" Rusiya şirkətləridir. Bu onu göstərir ki, Rusiya telekommunikasiya sahəsində payını azaltmaq istəmir.

Əslində, Ermənistan iqtisadiyyatının ən vacib üç sektoru - qaz, aviasiya və rabitə birdən dərin bir böhran vəziyyətinə düşdü. Bu böhran ölkənin iqtisadi suverenliyinin olmaması və Rusiyanın ölkəyə nəzarəti davam etdirmək cəhdləri ilə əlaqədardır".

Göründüyü kimi, koronavirusun tüğyan etdiyi dövrdə Ermənistan sözügedən sahələrdə baş verən böhrana görə Rusiyanı ittiham edir. Hansı ki, Ermənistanın var olması Rusiyanın hesabına mümkün olub.

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, erməni mediasında Rusiya əleyhinə bu kimi yazıların getməsi bir sıra amillərlə bağlıdır: "Əvvəla Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi üzündən Ermənistan regionda bütün layihələrdən kənarda qalıb. Nəticədə Ermənistanın iqtisadiyyatı yerində sayır. Paşinyan hakimiyyəti belə vəziyyətdə müəyyən manevrlər etmək istəyir. Ancaq bu manevrlərin hələ ki, Ermənistanın çökməkdə olan iqtisadiyyatına bir faydası yoxdur. Digər tərəfdən, Ermənistan iş adamlarının dünya bazarına çıxmaq imkanları yetərincə məhduddur. Bütün bunlarla yanaşı, Ermənistanın Avrasiya İttifaqından gözləntiləri özünü doğrultmur. Faktiki olaraq, AİI Ermənistanın mövcud problemlərinin aradan qaldırılması üçün heç nə etmir. Xüsusən də qazın qiymətinin salınması ilə bağlı danışıqlar heç bir nəticə vermədi. Hansı ki, koronavirus pandemiyası ilə əlaqədar enerji daşıyıcılarının qiyməti xeyli düşdü. Bu baxımdan, Rusiya qiymətlərdə güzəştə gedə bilərdi, amma getmədi. Rusiya yaxşı başa düşür ki, enerji məsələsində Ermənistanın alternativi yoxdur və yaxud da olduqca məhduddur.

*"Paşinyana yaxın olan mətbuat mütəmadi olaraq Rusiyanı tənqid atəşinə tutur"*

Ona görə də Rusiya bu məsələdə güzəştə getmək istəmir. Bunu da Ermənistandakı müəyyən dairələr ölkə üçün təhqir hesab edirlər. Bu səbəbdən Rusiyaya yönəlik tənqidlər artır. Digər tərəfdən, Ermənistanın telekommunikasiya sahəsi Rusiyaya yaxın şirkətlərin inhisarındadır. Paşinyan onlarla razılıq əldə edə bilməsə, problemləri həll edə bilməyəcək. Müşahidələrə əsasən, Rusiya telekommunikasiya şirkətləri güzəştə getmək istəmirlər. Bütün bunlar onu göstərir ki, Rusiya, əvvəllər olduğu kimi, yenə də Ermənistanı forpost hesab edir. Ermənistan uğrunda Qərblə gedən geosiyasi mübarizə kontekstində Kreml güzəştə getmək istəmir. Bir növ, Rusiya Paşinyan iqtidarını cəzalandırır. Ona görə də Paşinyana yaxın olan mətbuat mütəmadi olaraq Rusiyanı tənqid atəşinə tutur".

***Vidadi ORDAHALLI***

# Rusiyada yaşayan azərbaycanlılar Azərbaycan-Rusiya sərhədinə niyə toplaşır - səfirin çağırışı...

***Şakir Habiloğlu:** ”...vətəndaşlarımız laqeydlik, başısoyuqluq göstərərək həmin tarixə qədər sərhədi keçmədilər”*

**Məlum olduğu kimi, koronavirusla bağlı olaraq Azərbaycan qonşu ölkələrlə, o cümlədən də Rusiya ilə sərhədi bağlayıb. Yayılan informasiyalara görə, Rusiyada yaşayan Azərbaycan vətəndaşlarının müəyyən bir qismi Azərbaycan-Rusiya sərhədlərinə toplaşaraq respublikamıza gəlmək istəyirlər.**

Bildiyimiz kimi, Azərbaycan dövləti müxtəlif xarici ölkələrdə yaşayan Azərbaycan vətəndaşlarının təxliyyəsini həyata keçirib. İndiyə qədər 15 mindən artıq vətəndaşımız ölkəmizə təxliyyə edilib.

Bu cəhdlərin qarşısının alınması üçün Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu Rusiyada yaşayan azərbaycanlı vətəndaşlara müraciət edib. Səfir bildirib ki, koronavirusla bağlı vəziyyət gərgin olaraq qalır."Bütün dünyada koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaranmış vəziyyətlə bağlı dövlətlərin əksəriyyəti öz sərhədlərini bağlayıblar. Azərbaycan hökuməti də məcburiyyət qarşısında 20 aprel tarixinə qədər ölkəyə giriş-çıxışı dayandırıb.

Bununla əlaqədar olaraq, sizdən artıq dərəcədə xahiş olunur ki, Rusiya-Azərbaycan sərhədinə getməyəsiniz. Orada gözləmək üçün müvafiq şərait yoxdur. Sərhəd nə bir xahiş, nə də təzyiqlə açılmayacaq".

Səfir, həmçinin, qeyd edib ki, 20 aprel tarixindən sonra mövcud vəziyyətdən asılı olaraq sərhədlərin açılıb-açılmayacağına dair qərar veriləcək.

"Xahiş edirik ki, səfirliyimizlə "qaynar xətt" vasitəsilə əlaqə saxlayın. Səfirlik müvafiq siyahını hazırlayır və ilk fürsətdə sizinlə əlaqə saxlayıb nə zaman və hansı yolla Azərbaycana geri qayıtmağın mümkün olduğu barədə məlumat verəcək"- deyə səfir qeyd edib.

Məsələni şərh edən "Novoye vremya" qəzetinin baş redaktoru, tanınmış siyasi icmalçı Şakir Habiloğlu "Bakı-Xəbər"ə bildirdi ki, bu olduqca aktual bir məsələdir: "Bilirsiniz ki, koronavirusla əlaqədar olaraq bütün dünyada bir çox ölkənin başqa ölkələrdə vətəndaşları qalıb. Hər bir dövlət çalışır ki, imkanları daxilində xaricdə yaşayan vətəndaşlarını ölkəyə təxliyyə etsin. Azərbaycan da bu sahədə çox böyük işlər görüb və dövlətimiz çarter reyslər təşkil edərək, Yaponiya və ABŞ-dan başlayaraq, Avropa ölkələrinə, Türkiyəyə, Rusiyaya qədər dünyanın hər yerindən öz vətəndaşlarını ölkəyə təxliyyə edib. Bilirsiniz ki, koronavirus daha kəskin xarakter aldıqdan sonra aprelin 5-dən ölkəmizdə karantin rejimi ilə bağlı sərt qərarlar qəbul edildi və Azərbaycanın bütün ölkələrlə, o cümlədən də Rusiya ilə hava və yerüstü əlaqələri dayandırıldı. Hesab edirəm ki, bu, vaxtında qəbul olunmuş düzgün bir qərardır. Çünki Azərbaycan dövləti öz vətəndaşlarını qorumaq üçün bu addımı atıb. Bilirsiniz ki, karantində olan insanların sayı çox idi. Bu insanların yerləşdirilməsinə, xəstəxanalarda müalicəsinin həyata keçirilməsinə bir çox ölkə hazır deyildi. Azərbaycan dövləti Xarici İşlər Nazirliyinin xəttilə xarici ölkələrdə yaşayan vətəndaşlarımıza müraciət edərək, qaldıqları ölkələrdə mövcud olan karantin rejiminə əməl etməyə çağırmışdı və eyni zamanda, bildirmişdi ki, koronavirus təhlükəsi bitən kimi Azərbaycan öz vətəndaşlarını ölkəmizə gətirəcək. Bilirsiniz ki, Azərbaycan vətəndaşlarının ən çox getdiyi ölkələrdən biri Rusiyadır. Bu ölkəyə Azərbaycan vətəndaşları müxtəlif səbəblərdən gedirlər və orada işləyirlər. Demək olar ki, Rusiyada 2 milyondan artıq azərbaycanlı var, onların da böyük əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Belə olan halda, Azərbaycan hökuməti ölkəmizin Rusiyadakı səfirliyi vasitəsilə dəfələrlə Rusiyada yaşayan Azərbaycan vətəndaşlarına müraciət edərək, onlara martın 31-nə qədər Azərbaycan-Rusiya sərhədini keçməyi tövsiyə etsə də, lakin vətəndaşlarımız laqeydlik, başısoyuqluq göstərərək həmin tarixə qədər sərhədi keçmədilər. İnsanlar, həmişəki kimi, bu məsələyə biganə yanaşdılar. Bilirsiniz, qanun ona görə qəbul olunur ki, ona riayət olunsun. Azərbaycan hökuməti də bütün vətəndaşlardan mövcud qayda və qanunlara riqayət edilməsini tələb edir. Bu qərarlar virusun Azərbaycanda geniş yayılmasına və bu bəladan az itki ilə çıxmağa xidmət edir. Rusiyada yaşayan Azərbaycan vətəndaşları da ölkəmizdə qəbul olunan qərarlara riayət etməlidirlər. Onlar dövlətin bir müddət əvvəl etdiyi çağırışlara laqeyd, biganə yanaşdılar, onlara elə gəldi ki, qanundankənar hərəkət edə bilərlər, Azərbaycan dövləti verdiyi qərarların əleyhinə çıxıb onun çağırışlarına əməl etməyən vətəndaşları indiki şəraitdə ölkəyə gətirməlidir. Bu belə olmalı deyil, Rusiyada yaşayan vətəndaşlarımızın bu tələbi, etirazı yersizdir.

Azərbaycan Respublikasının Rusiyadakı səfirliyi bu ağır şəraitdə işləyirdi. Mən səfirliklə dəfələrlə əlaqə saxlamışam və səfirliyin "qaynar xətt"inin 24 saat fasiləsiz işlədiyinin şahidi olmuşam. Onlar gərgin işləyərək Rusiyadakı vətəndaşlarımızın ölkəmizə təxliyyəsi ilə məşğul olurdular. Səfirlikdə olan "qaynar xətt" işləyirdi ki, vətəndaşlar günün istənilən vaxtı zəng edib bütün məsələlərə aid suallara cavab alırdılar. "Qaynar xətt" vasitəsilə onlara hər şey izah olunurdu".

Ş.Habiloğlunun sözlərinə görə, aprelin 5-dən sonra isə sərhədlər tam qapadıldı və bundan sonra da səfirlik fəaliyyətini davam etdirdi, vətəndaşlara vəziyyəti izah etməyə çalışdı. "Hətta səfirlik diaspor qurumları ilə də əlaqə saxlayıb onlardan xahiş edirdi ki, insanlara qanunları başa salsınlar. İzah etsinlər ki, hazırda Azərbaycanda ciddi karantin rejimidir və sərhədlər bağlıdır, vəziyyət düzələn kimi vətəndaşlar ölkəmizə gətiriləcək. Çox təəssüflər olsun ki, vətəndaşlarımız buna qulaq asmaq istəmirlər. Bu gün Dağıstan ərazisindən keçərək Rusiya və Azərbaycan sərhədinə Rusiyada yaşayan Azərbaycan vətəndaşları yığışıb və deyirlər ki, biz sərhədi keçməliyik. Ən dəhşətlisi odur ki, insanlar özləri orada qalır, sərhədə uşaqlarını, həyat yoldaşlarını göndərirlər. Bu insanlar ailələri, qohum-əqrəbaları haqqında düşünməlidirlər. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiyada müvəqqəti məskunlaşan Azərbaycan vətəndaşlarına bir daha müraciət etdi və onlara vəziyyəti bir daha başa saldı ki, vəziyyət çox ciddir, bunu nəzərə alıb sərhədə getməyin. Vəziyyət ağır olduğu üçün vətəndaşların sərhədə yığılmasının heç bir əhəmiyyəti yoxdur. Sərhəd yalnız Azərbaycan tərəfindən deyil, Rusiya tərəfindən də bağlanıb. Bu, iki dövlət tərəfindən qəbul olunmuş qərardır. Bu qərara əməl edilməlidir. Qeyd etdiyim kimi, buna qədər də vətəndaşlara yazılı müraciətlər edilmişdi, onlara sərhədlər bağlı olduğu üçün Azərbaycan-Rusiya sərhədlərinə getməmək tövsiyə olunmuşdu.



*”Hesab edirəm ki, vətəndaşlar səfirin çağırışlarından nəticə çıxarmalı, qaldıqları yerə qayıtmalı və sərhədin açılmasını gözləməlidirlər”*

Bu gün sərhəddə vəziyyət məlumdur və bu halda vətəndaşların Azərbaycan-Rusiya sərhədinə gəlib "bizi buraxın, bizi buraxmağa borclusunuz" tələbini irəli sürməsi qətiyyən doğru deyil. Rusiyada yaşayan vətəndaşlarımızın Azərbaycan-Rusiya sərhədlərinə gəlib müəyyən xoşagəlməz hallara yol verməsi Azərbaycan və azərbaycanlı adına müsbət nəsə gətirmir, millətimizi, dövlətimizi nüfuzdan salmağa xidmət edir. Belə qanunsuz əməllərə yol verməK olmaz.

**Bəzi vətəndaşlarımızın Azərbaycan-Rusiya sərhədlərində yol verdikləri qanunsuz hərəkətlərə və çağırışlara Azərbaycanın Rusiyadakı səfiri reaksiya verdi və vətəndaşlarımıza müraciət edərək onları sərhədə toplaşmamağa çağırdı. Hesab edirəm ki, vətəndaşlar səfirin çağırışlarından nəticə çıxarmalı, qaldıqları yerə qayıtmalı və sərhədin açılmasını gözləməlidirlər. Azərbaycan dövləti özünün bütün vətəndaşlarına diqqət və qayğı ilə yanaşır, koronavirus bitdikdən sonra onların da ölkəmizə qayıdışı təmin ediləcək" - deyə Ş.Habiloğlu vurğuladı.**

*İradə SARIYEVA*

**Ermənistanda koronavirusa yoluxanların sayı 1013 nəfərə çatıb. Ümumilikdə ölkədə infeksiyadan 13 nəfər ölüb, 197 xəstə sağalıb, hazırda 803 nəfərin müalicəsi davam edir. Səhiyyə naziri Arsen Torosyan Ermənistan parlamentin səhiyyə və sosial məsələlər üzrə daimi komissiyasının iclasında deyib ki, Ermənistanda uzun müddət əvvəlki həyat rejiminə qayıtmaq mümkün olmayacaq:**

# Ermənistan iqtisadiyyatı koronavirus həmləsinə dözmədi - Paşinyan ölkədə işi bərpa edir, xalq virusla baş-başa buraxılır...




## *Hatəm Cabbarlı: "Hər nə olsa da, artıq Ermənistan bölgə üçün həm də pandemiyanı yayan ölkə kimi təhlükə saçır"*

"Çünki koronavirusun yayılması nəzarətdən çıxıb". Erməni nazir bildirib ki, hökumətə fövqəladə vəziyyət rejimininin uzadılması barədə təklif irəli sürüləcək: "Bu, koronavirusun qarşısının alınması üçün göstərdiyimiz səylərin davamlılığının təmin edilməsi baxımından vacibdir. Fövqəladə rejim ləğv olunarsa, səhiyyə sistemi xəstələrin axınının öhdəsindən gələ bilməyəcək. Belə bir vəziyyətin yaranmasına yol vermək olmaz. Koronavirus Ermənistanı gəzir və infeksiya ocaqlarına nəzarət itib". Onun sözlərinə görə, infeksiya zənciri qırılmalıdır və bunun üçün uzunmüddətli tədbirlər lazımdır.

Ancaq maraqlıdır ki, bu cür açıqlamanın fonunda Paşinyan iqtisadiyyatın, demək olar ki, bütün sferalarında tətbiq edilən qadağalar rejimini yumşaldıb. Aprelin 13-dən isə açıq havada tikinti işlərinin aparılmasına da icazə verilib. Paşinyan bu barədə məlumatı özünün "Facebook" səhifəsində yazıb. Maraqlı və paradoksal vəziyyət yaranır. Ölkənin səhiyyə naziri koronavirusla bağlı vəziyyətin acınacaqlı olduğunu, hətta buna nəzarət imkanlarının olmadığını deyir, ökədə hökm sürən fövqəladə vəziyyət qüvvədə qalır, ancaq iqtisadiyyatın bütün sahələrində fəaliyyətin bərpa olunmasına icazə verilir. Deməк, ölkə iqtusadiyyatı fövqəladə vəziyyətə dözmədi. Ehtimal etmək olarmı ki, Paşinyan iqtisadiyyatın tam çöküşündən qorxduğu üçün belə qərar verməyə məcburdu?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan hökumətinin gücsüzlüyü əvvəldən bəlli idi:"Çünki buna ancaq iqtisadiyyatı güclü olan ölkələr tab gətirə bilərdi. Onsuz da dotasiya hesabına yaşayan Ermənistanın üstəlik bütün fəaliyyət sferalarını qadağan etməsi uzun sürə bilməzdi. Hələ proses yeni başlayanda Ermənistan elan etdi ki, onların tibbi personalı çatmır. Statisika da göstərir ki, Ermənistanda pandemiya sürətlə yayılır. Hətta deyərdim ki, bu istiqamətdə onlar digər Cənubi Qafqaz ölkələrini də qabaqlayır. Nikol Paşinyan karantin tədbirlərinin yumşaldılmasına icazə verib. Yalnız strateji, dövlət əhəmiyyətli sahələr deyil, demək olar ki, iqtisadiyyatın bütün sahələrinə işləmək icazəsi verilib. Ancaq biz səhiyyə nazirinin açıqlamasında həyəcan təbilinin çalındığını görürük. O deyir ki, koronavirusla mübarizə idarəolunmaz hala gəlib. Bu o nəticəyə gəlməyə əsas verir ki, hökumət vətəndaşları pandemiya ilə mübarizədə taleyin ümidinə buraxıb. Ehtimal edirəm ki, Paşinyanın bu qərarı Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də nəzərdən keçirilə bilər. Çünki bu, faktiki olaraq, pandemiyanın yayılmasına münbit şərait yaratmaq anlamına gəlir. Paşinyanın bu qərarı qüvvəyə mindikdən sonra biz Ermənistanda pandemiyanın sürətlə yayılmasının yeni bir dalğasını müşahidə edəcəyik. Bu gedişlə Paşinyan həm də beynəlxalq ictimaiyyətin diqqətini özünə cəlb etmək istəyir ki, bəşəri problemlə mübarizədə yaxşı yardım əldə edə bilsin. Hər nə olsa da, artıq Ermənistan bölgə üçün həm də pandemiyanı yayan ölkə kimi təhlükə saçır. Bu vəziyyətə düşməyinə görə Ermənistan yalnız özünü qınamalıdır. Onu bu cür rəzil vəziyyətə salan işğalçılıq siyasətidir. Məhz bu amil onun təcrid olunması və dilənci vəziyyətinə düşməsinə səbəb olub".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Bir neçə il bundan əvvəl məlum oldu ki, ABŞ-ın Ermənistanda bioloji laboratoriyası fəaliyyət göstərir. Moskva isə Ermənistan ərazisində ABŞ-ın bioloji laboratoriyasının fəaliyyət göstərməsindən bərk narazılığını ifadə etdi. İlk olaraq bu etiraz Rusiya xarici işlər naziri Sergey Lavrov tərəfindən edildi.**

# Paşinyanın hərbi-bioloji laboratoriya məsələsində Rusiya-ABŞ balansı yaratmaq cəhdi? Rusiyanın yeni laboratoriyaları...




Həmin vaxt Lavrov bildirdi ki, Ermənistan ərazisində ABŞ-ın maliyyə dəstəyi ilə açılan bioloji laboratoriya KTMT daxilində münaqişəli vəziyyət yaradır: "Bizim xüsusi xidmətlər və alimlər həmin laboratoriyalarla bağlı gərgindir və narahatdır. Onlar niyə bu laboratoriyaları Qərbi Avropa ölkələrində açmır?" Bundan sonra İrəvan Rusiya ilə bioloji tədqiqatlar sahəsində əməkdaşlığa dair ayrıca sənədin imzalanmasını nəzərdən keçirməyə başladı. Hətta Rusiyadan olan mütəxəssislərin həmin laboratoriyada monitorinq apardıqlarına dair məlumatlar yayıldı.

Erməni KİV-nin yaydığı məlumatlardan belə anlaşılır ki, artıq Rusiya Ermənistanda səyyar hərbi-bioloji laboratoriyasını yaradıb. Qeyd edilir ki, laboratoriya iki ölkənin xarici işlər nazirlərinin razılığı əsasında Ermənistana gətirilib. Hətta Ermənistanın müdafiə naziri ilə Rusiyanın həmin ölkədəki səfirinin həmin labaratoriyaya birlikdə baş çəkdikləri də qeyd olunur. Ermənilər bunu koronavirus pandemiyası ilə əlaqələndirməyə çalışsalar da, əslində, Paşinyan bununla Rusiyanın könlünü alır və bioloji laboratoriyalarla bağlı ABŞ-la Moskva arasında balans yaratmağa cəhd edir. Bu ehtimal barədə politoloqlar nə düşünür?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ-ın Ermənistanda bioloji laboratoriyaları və onların fəaliyyəti haqqında danışmaq üçün bir qədər əvvələ ekskurs etməliyik: "2008-ci ildə ABŞ-ın çoxmilyardlıq büdcəsi nəzərdə tutulan Bioloji Müdafiədə Birgə İştirakçılıq Proqramı - CVEP elan olunandan sonra buna maraq göstərən ilk ölkələrdən biri Ermənistan olub. Aydın məsələdir ki, burda rəsmi İrəvanın ənənəvi marağı - ölkəyə növbəti kənar maliyyənin cəlb olunması istəyi dururdu. Məhz 2008-ci ildən başlayaraq ABŞ Ermənistanla bu əməkdaşlıq çərçivəsində bioloji laboratoriyalarının bu ölkədə yerləşdirilməsi üçün fəaliyyətə başladı. Ümumi sayı 12 olan bioloji laboratoriyaların inşasını nəzərdə tutan bu əməkdaşlıq Ermənistan hökuməti tərəfindən çəmiyyətinə Ermənistanın bioloji təhlükəsizliyi və təminatı üçün vacib əhəmiyyətli bir layihə kimi təqdim olundu, lakin layihənin sifarişçisinin məhz ABŞ Müdafiə Nazirliyinin olması gizlədildi. Onu da qeyd edim ki, ilkin olaraq bu proqramın təqdimatı tibbi-bioloji proqram kimi edilmişdi və Avrasiya və Avrikanın 25 ölkəsində ölkələrin virusları aşkar etmək, zərərsizləşdirmək qabiliyyətinin inkişaf etdirilməsi kimi layihəsi nəzərdə tutulurdu". Ekspertin sözlərinə görə, proqramın məqsədləri haqqında aydın təsəvvürlər ABŞ hərbi sənayesində bioloji məqsədlərdə DTRA-Təhlükəsizlik Təhdidlərinin Azaldılması Agentliyinin aktivliyindən sonra yarandı və bu bioloji laboratoriyaların əslində bioloji silahların istifadəsi və inkişafı ilə bağlı gizli tədqiqatlar aparılması üçün nəzərdə tutulması üzə çıxdı:"Buna qədər isə DTRA-nın uzun müddət bioloji silah kimi nəzərdə tutulan sibir xorası-vəbası, brüsselyoz, boz vəba, Afrika donuz xorası və tulyaremiya kimi xəstəliklərin təbiətinin öyrənilməsi, patogenlərin araşdırılması kimi fəaliyyət aparması məlum idi. İnşasından sonra Ermənistandakı bu laboratoriyalardan bir neçəsi ABŞ-ın Gürcüstandakı qapalı hərbi-bioloji laboratoriyasına, Lugar Mərkəzinin şöbələri kimi, virusların "becərilməsində" bir növ "tarla" rolunu oynamaq, orda "becərilən viruslar"ı daha sonra Gürcüstandakı hərbi-bioloji Luqar Mərkəzinə ixrac etmək imkanına malik oldular. İstər Ermənistandakı laboratoriyalar, istərsə də Gürcüstandakı Lugar Bioloji Mərkəzi yerləşdiyi Cənubi Qafqaz regionunun sərhədləri, Rusiya ilə İrandan əlavə, Mərkəzi Asiyaya qədər xüsusi təhlükəli patogenlərin təbiəti, yayılması və mutasiya imkanları haqqında ümumi bir məlumat baza tərtib edilir ki, bu baza, əlbəttə, ABŞ Müdafiə Nazirliyinin xidməti və istifadəsi üçün nəzərdə tutulur.

İndi qayıdaq sualın "Ermənistanda Rusiya hərbi bioloji laboratoriyalarının açılması prosesinin Paşinyanın bu ölkədə Amerika bioloji laboratoriyalarına qarşılıq balans yaratmaq siyasəti ola bilərmi" hissəsinə. Cavab olaraq onu deyim ki , bu prosesin hazırda Ermənistanda cəmiyyətə təqdim edildiyi kimi koronavirusla mübarizə fəaliyyəti çərçivəsində baş verməsi həqiqətə uyğun deyil. Bu fəaliyyət keçən il noyabrın 11-də Rusiya xarici işlər naziri Sergey Lavrovun İrəvana səfəri zamanı əldə olunmuş razılaşma çərçivəsində həyata keçirilir. Məhz onda Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsində ABŞ təşəbbüsü və maliyyəsi ilə inşa edilmiş bioloji laboratoriyaların Rusiya ilə birgə istifadəsinə dair memorandumu imzaladı. Bunu isə Ermənistanın Rusiya ilə münasibətlərində yumşalma kimi deyil, Paşinyanın ölkə daxilindəki siyasi rəqiblərinə qarşı apardığı repressiyalara Rusiya tərəfindən göz yumulması üçün bir jest olaraq qiymətləndirmək daha doğru olardı".

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirus dövründə Bakı-Tiflis-Qars Mərkəzi Asiya ölkələri iqtisadiyyatının da xilas yoluna çevrilir

**Azərbaycanın təşəbbüsü əsasında videokonfrans vasitəsilə baş tutan Türk Şurasının dövlət başçılarının fövqəladə zirvə görüşü bir çox parametrlər baxımından mühüm əhəmiyyət kəsb etdi. Əvvəla, bu qurum dünyada ilk beynəlxalq təşkilat oldu ki, videokonfrans vasitəsilə dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş zirvə görüşünü keçirdi.**

Digər tərəfdən, pandemiyanın ilk günlərindən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasına, özünəqapanma yolunu seçməsinə rəğmən, məhz Azərbaycanın təşəbbüsü ilə təşkil edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının zirvə görüşü üzv ölkələrin fərqli davranışına və yaranmış reallığa adekvat reaksiya verən ilk beynəlxalq təşkilat olaraq adını tarixə yazmasına səbəb oldu.

Daha bir önəmli məqam budur ki, koronavirusun dünya iqtisadiyyatına vurduğu zərər fonunda türkdilli dövlətlər onlara dəyən zərərin minimal həddə olması üçün işbirliyini gücləndirməyə hazırlaşır. Bu hal, belə görünür, özünü yükdaşımalar sahəsində də qabarıq şəkildə büruzə verəcək. Qeyd edək ki, bu məsələyə Prezident İlham Əliyev zirvə görüşündə ayrıca toxundu. Bu xüsusda dövlət başçısı qeyd etdi:"Türkdilli ölkələrin iqtisadiyyatı, ticarət münasibətləri və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımaları mühüm əhəmiyyətə malikdir. Azərbaycan Türkiyə və Mərkəzi Asiya arasında etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görüb. Qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində ölkələrimiz arasında beynəlxalq yükdaşımaları fasiləsiz olaraq həyata keçirilir. Pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk 3 ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsilə daşınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur". Yükdaşımalarda isə yenə Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Bakı-Tiflis-Qars dəmir yolu xəttinin artıq srtateji əhəmiyyət kəsb etdiyi üzə çıxır. İndi məhz bu dəmir yolu vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əlaqələrin daha da gücləndirilməsi aktuallaşıb. Elə bu səbəbdən təsadüfi deyil ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bu dəmir yolu xəttinin Orta Asiyaya qədər uzadılmasının mümkünlüyü və vacibliyini ön plana çəkdi:"Bu gün koronavirus pandemiyasının yayılması ilə beynəlxalq böhranla üzləşmişik. Bu isə ölkələrimiz arasındakı ticarətə mənfi təsir göstərir. Nəqliyyat, gömrük kimi sahələrdə praktiki həllər həyata keçirməliyik. Bakı-Tiflis-Qars dəmir yolu xəttini Orta Asiyaya qədər uzada bilərik. Türkiyə, Azərbaycan və Gürcüstan arasında yük daşımaları üçün qurulan bu yolun Orta Asiyaya qədər uzadılması mümkündür. Bakı-Tiflis-Qarsla gündəlik 3 500 ton yük daşınmasına çalışırıq. Bu mənada, üzv ölkələrdən sürücülər üçün vizanın, həmçinin daxilolma məbləğində və digər məsələlərdə işin asanlaşdırılmasını gözləyirəm".



Xatırladaq ki, Bakı-Tiflis-Qars 2017-ci il oktyabrın 30-da açılıb. Dəmir yolu xətti Asiya və Avropanın dəmiryol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. Bakı-Tiflis-Qars yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir. İndiki halda bu dəmir yolu Mərkəzi Asiya ölkələri olan Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa, eləcə də dünya bazarlarına çıxışını asanlaşdırır. İndi pandemiya səbəbindən iqtisadiyyatda üzləşdikləri çətinlikləri dəf etməkdən ötrü Mərkəzi Asiya ölkələri üçün də Bakı-Tiflis-Qars daha böyük önəm kəsb etməyə başlayır. Xatırladaq ki, bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Mərkəzi Asiya ölkələri bu xəttə daha fəal qoşulmaqla böyük iqtisadi dividendlər əldə edə bilər. Hazırda bu dəmir yolundan istifadədə Mərkəzi Asiya ölkələri sırasında Qazaxıstan daha aktiv iştirak edir. Digər Mərkəzi Asiya ölkələrinin də Bakı-Tiflis-Qarsdan istifadəsi onların ixrac imkanlarının artımına əhəmiyyətli dərəcədə təsir göstərmək iqtidarındadır. Türkiyənin ticarət naziri Ruhsar Pekcan məsələyə həm də başqa prizmadan nəzər salaraq bildirir ki, Bakı-Tiflis-Qars dəmir yolu yeni tip koronavirus infeksiyası risqi ilə əlaqədar yük daşınmalarındakı problemləri aradan qaldırmağa kömək etmək iqtidarındadır. Onun sözlərinə görə, bu polad magistral Avrasiyada bütün növ yüklərin təhlükəsizlik daşınmasında xüsusi imkanlara malikdir:"Türkiyə tərəfi yeni tip koronavirusun yayılmasının iqtisadiyyata və ticarət dövriyyəsinə mənfi təsirini azaltmaq üçün gördüyü tədbirlər sırasında Bakı-Tiflis-Qars dəmir yolunda hərəkətin intensivliyini artırmağa ciddi diqqət yetirir. Bakı-Tiflis-Qars xətti ilə daşınmaların həcmini təxminən 2,4 dəfə artırmağa imkan var". Nazir bildirib ki, məlum səbəbdən son aylar Türkiyə ilə İran arasındakı daşınmalara dair problem məhz bu xəttin verdiyi imkanlar sayəsində çözülüb.

Bundan başqa xatırladaq ki, sözügedən dəmir yolu xətti Avrasiya məkanında artıq polad magistralların açarı rolunu oynamağa başlayıb. Hazırda geniş coğrafiyada cəlbedicilik yaradan bu marşrut Avropa İttifaqı ölkələrinin də Azərebaycan və Türkiyə ilə dəmir yolu əlaqələrinin qurulmasında təkanverici qüvvəyə malikdir. Belə ki, Çinin həyata keçirdiyi "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində London-Qars dəmir yolu ideyasının ortaya çıxması Avropa İttifaqını Anadolu ilə polad magistrallar üzərində əlaqəyə həvəsləndirib. Tərəflər hesab edirlər ki, təhlükəsiz dəmir yolu marşrutunun yaradılması qarşılıqlı maraqları tam əks etdirir. Bu mənada Mərkəzi Asiya ölkələrinin daha fəal şəkildə Bakı-Tiflis-Qars xəttinə qoşulması onların özü üçün də müstəsna əhəmiyyət kəsb edir.

***Ramil QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Koronavirus Ermənistanın işğal siyasətinin üzərindən xətt çəkir - Paşinyan hökuməti epidemiyanı nəzarətdə saxlaya bilmir, ölkə iqtisadi fəlakət astanasında...

**Koronavirus pandemiyasının dünya ölkələrinin hamısına müxtəlif dərəcədə iqtisadi zərər vurması artıq heç kimə sirr deyil. İqtisadiyyatı zəif olanların bundan daha çox təsirlənməsi də birmənalı həqiqətdir. Məsələn, işğalçı Ermənistanın zəif iqtisadiyyatı koronavirusun yaratdığı mənfi təsirlər altında daha sürətlə çökür.**

Yaranmış vəziyyətdə Ermənistanda getdikcə daha çox diqqət yetirilən məsələlərdən biri də bu halda Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli halında ölkənin durumunun necə olacağıdır. Xüsusən də ordumuzun son hərbi təlimindən sonra bu məsələ işğalçı ölkədə xeyli dərəcədə aktuallaşıb. Xatırladaq ki, müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin MiQ-29 və Su-25 təyyarələrinin cəlb olunması ilə taktiki-uçuş təlimi keçirilib. Təlim zamanı qarışıq aviasiya qrupları tərəfindən yerüstü hədəflərin məhv edilməsi, hava hədəflərinin ələ keçirilməsi, hava hücumundan müdafiə səddinin aşılması və radioelektron mübarizə vasitələrindən istifadə olunmaqla şərti düşmənin hava hücumunun dəf edilməsi kimi tapşırıqlar məşq etdirilib. Pilotlar yeni və modernizə olunmuş radioelektron mübarizə vasitələri ilə yaxın, orta və uzaq mənzilli hava hücumundan müdafiə sistemlərinin susdurulması imkanlarını yoxlayıb, eləcə də aviasiya vasitələrinin tətbiqi bacarıqlarını təkmilləşdiriblər.

İndi Ermənistanda bu fonda hesab edilir ki, Azərbaycan təlimləri indiki şəraitdə keçirməklə koronavirusun daha böyük zərbə vurduğu İrəvana açıq mesajlar verir. Məsələ burasındadır ki, koronavirus Azərbaycan və Ermənistana fərqli həcmdə zərər vurur. Azərbaycan iqtisadiyyatı, maliyyə imkanları buna tab gətirməyə imkan verirsə, Ermənistanda vəziyyət fərqlidir. Koronavirus sözün əsl mənasında Ermənistanın çöküşünü daha sürətli hala gətirir. Hətta o da məlumdur ki, Ermənistanda koronavirusun yayılması artıq nəzarətdən çıxıb. Ölkənin səhiyyə naziri Arsen Torosyan Ermənistanın parlamentinin səhiyyə komitəsinin iclasında çıxışı zamanı faktı etiraf edib: "Deyə bilmərik ki, bizdə koronavirusun yayılması dayanıb. Əgər əvvəllər bir mənbədən 50 yoluxma halı baş verirdisə, indi biz 10 və ya 20 mənbədən 16, 20 bəzən də 30 yoluxma halı ilə qarşılaşırıq. Bu da onu deməyə əsas verir ki, koronavirusun yayılması nəzarətdən çıxıb". Elə polittexnoloq Vigen Akopyan da vəziyyətin yaxşı olmadığını bildirib. Akopyan qeyd edir ki, indiki halda Ermənistan hakimiyyəti harada olduğu və hara getmək istədiyi barədə sistemli anlayışa sahib deyil. O bildirib ki, hakimiyyət nəsə etmək istəyir, qabaqlayıcı tədbir görməyə çalışır, amma hazırda situasiya mövcud siyasi kursun əleyhinədir. Akopyanın sözlərinə görə, ölkədə fövqəladə vəziyyət elan edilib, karantin var, amma vəziyyətə nəzarət mümkün olmur: "İstər insanları evdə saxla, istər saxlama, fərqi yoxdur, bu, anlaşılmaz hibrid vəziyyətdir. Sistemli mexanizmin olmadığına məmurların açıqlamaları da şahidlik edir. Paşinyan bir söz deyir, komendant başqa söz; səhiyyə naziri isə bir ay öncə tam başqa tərəfdə idi, indi əksinədir və ümumiyyətlə, o nə vaxt adekvat olub ki! Bu halda Ermənistanın sosial-iqtisadi durumunun daha da ağırlaşması müşahidə olunur. Bir şey aydındır ki, biz itirəcəyik. Biz hələ ən ciddi krizisi hiss etməmişik. Mən o fikirlə tam razıyam ki, bizi qarşıda əsl iqtisadi fəlakət gözləyir". Ekspert bildirir ki, bu halda ordunun təminatında yaranacaq problemlər Ermənistanın təhlükəsizliyinə də birbaşa təsir edəcək:"Ən çox narahatlıq yaradan məqamlardan biri də Qarabağ münaqişəsi ilə bağlıdır. İndiki halda məsələ hərbi həll müstəvisinə keçsə, problemlər çox olacaq. Azərbaycan yenə güc nümayiş etdirir. Dünyanın başı isə koronavirusa qarışıb və məni narahat edən budur ki, indi savaş başlasa, ona diqqət yetirən, beləliklə də Azərbaycanı dayandıran olmayacaq". Bunlar fonunda Ermənistan Xarici işlər naziri Zöhrab Mnatsakanyanın dedikləri də təsadüfi sayılmır. Mnatsakanyan vurğulayır ki, koronavirus Qarabağ konfliktinin həlli prosesinə müəyyən təsir göstərib. O, ATƏT sədrinin şəxsi nümayəndəsinin hazırda monitorinq aparmadığını da bildirib və ölkəsinin proseslərin inkişaf istiqamətindən narahat olduğunu qeyd edib. Daha bir erməni ekspert Alen Qulyan da eyni mövqe sərgiləyir. O xatırladır ki, Azərbaycan Silahlı Qüvvələri cəbhə xətti yaxınlığında yerləşən təlim sahələrində 3-4 gün ərzində hərbi təlimlər keçirib. Ekspert qeyd edib ki, əvvəllər snayper təlimləri keçirirdilərsə, indi artıq artilleriya, tanklar və aviasiya tətbiq edilir:

"Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti tərəfindən yayılmış məlumatlardan məlum olub ki, aprelin 9-da T-90 tankları, D-20, D-30 və "Qiatsint-B" özüyeriyən haubitsaları ilə təlimlər keçiblər.

Bundan başqa, aprelin 9-da hərbi aviasiya da tətbiq ediblər. Azərbaycanlı hərbi jurnalistlər və cəbhə xəttində yaşayan istifadəçilər yazır ki, təyyarələr cəbhə xəttinə yaxın ərazidə də uçuşlar edib. Onların sözlərinə görə, Tərtər rayonundan Füzuli rayona qədər uçuşlar edilib. Az əvvəl Azərbaycan tərəfində məlumat yayılıb ki, aprelin 10-da "Smerç" yaylım atəşli reaktiv sistemləri ilə döyüş atışlı təlimlər keçirilib. Bunlar olduqca narahatedicidir və Azərbaycanın güc variantından imtina etmədiyini bir daha təsdiq edir". Daha bir erməni siyasi ekspert Hayk Xaçikyan da savaşı istisna etmir: "İnternetdə məlumat yayılıb ki, Azərbaycan Silahlı Qüvvələri cəbhə xətti yaxınlığında yerləşən təlim sahələrində hərbi təlimlər keçirib. Xüsusən də cəbhə xətti yaxınlığındakı uçuşlar indi daha çox diqqət cəlb edir. Əlbəttə, Azərbaycan Müdafiə Nazirliyi təlim uçuşları həyata keçirdiklərini bildirib, bənzər şeylər mütəmadi olaraq edilir. "Smerç"in tətbiq olunması ilə bağlı deyə bilərəm ki, son günlərdə mənə "Smerç"in cəlb olunmasının yalnız bir halı məlumdur, o da Naxçıvanda. İndi genişmiqyaslı hərbi təlim deyil, lakin Azərbaycan vəziyyəti bir neçə saat ərzində 180 dərəcə dəyişə bilər. Bax bu da çox narahatedicidir. Xüsusən də koronavirusun Ermənistana vurduğu zərərlər fonunda ordunun təminatında problemlərin artdığı bir vaxtda".

Bütün bu qeyd edilənlər fonunda daha bir maraqlı açıqlama da rusiyalı siyasi ekspert Denis Korkodinovdan gəlib. O bildirir ki, İrəvan həqiqətən də çətin bir durumdadır və qonşu ölkələrlə münaqişə şəraitində olan Ermənistan koronavirusla bağlı vəziyyəti saxtalaşdırmağa məcburdur. Onun sözlərinə görə, koronavirusla bağlı obyektiv informasiya Ermənistanın potensial düşmənləri tərəfindən hücum üçün real bəhanə kimi istifadə edilə bilər:"Bununla bağlı Ermənistan baş naziri Nikol Paşinyan və onun ətrafı ilk növbədə dövlət təhlükəsizliyi üçün beynəlxalq ictimaiyyətin neqativ epidemioloji situasiya haqqında doğru məlumatları əldə etməsində maraqlı deyil. Bununla bərabər, Ermənistan həqiqəti gizlədərək, bu gün koronavirusun yayıldığı Yəmən, Suriya və İraq kimi ölkələrdən fərqlənmir. Məsələn, Yəmən Ali Siyasi Şurasının liderləri bilərəkdən koronavirusla bağlı informasiyanı gizlədir ki, bundan koalisiya qüvvələri husilərə genişmiqyaslı hücumlar üçün istifadə etməsin. Yekunda Ümumdünya Səhiyyə Təşkilatı üçün koronavirusun Yəmənə toxunmadığı görüntüsü yaradılır. Beləliklə, erməni rəhbərliyinin real epidemioloji vəziyyət barədə informasiyanı gizlətməsində qeyri-adi heç nə yoxdur. İrəvan Bakının bu informasiyanı Qarabağı azad etməklə bağlı şəxsi planlarını reallaşdırmaq üçün istifadə edəcəyindən qorxur". Qeyd edək ki, elə bu günlərdə də "COVİD-19 Ermənistan" qrupu keçirdiyi mətbuat konfransında Paşinyan hökumətini koronavirusdan baş verən ölümləri gizlətməkdə suçlamış və faktlar təqdim etmişdi. Bu ölkənin Səhiyyə Nazirliyinin Xəstəliyə Nəzarət və Profilaktikası Mərkəzinin son məlumatına görə isə, Ermənistanda koronavirusa yoluxanların sayı 1 039-a çatıb. Bildirilir ki, son sutkada COVID-19-a daha 26 nəfər yoluxub, 1 nəfər ölüb. Bununla da virusdan ölənlərin sayı 14-ə çatıb. Hazırda 814 nəfərin müalicə olunduğu bildirilib. Eləcə də Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsində koronavirusa yoluxanların sayı 6-ya çatıb. Qeyd edilir ki, yeni müayinə edilən 9 nəfərdən birində koronavirusa yoluxma təsdiqlənib. Həmin şəxs daha əvvəl virusa yoluxanın həyat yoldaşıdır.

İndiyədək Qarabağda 6 nəfərin koronavirusa yoluxması barədə məlumat açıqlanıb. Amma elə erməni mediasında yer alan məlumata əsasən, həm də onun işğal altında saxladığı Azərbaycan ərazilərində koronavirusa yoluxanların sayı rəsmi rəqəmlərdə göstərildiyindən dəfələrlə çoxdur. Hətta bu səbəbdəndir ki, Dağlıq Qarabağ da qondarma rejim koronavirusa görə "fövqəladə vəziyyət" elan edib.

**Bununla Dağlıq Qarabağ bölgəsində də koronavirus pandemiyasının geniş yayıldığı dolayısı ilə etiraf olunub. Qarabağ separatçılarının lideri Saakyan fövqəladə vəziyyət rejiminin 12 apreldən 12 maya qədər davam edəcəyini bildirib. Bütün bunlar koronavirus pandemiyasının düşmən tərəfdə geniş yayıldığını bir daha təsdiq edir. Hesab edilir ki, virus geniş yayıldıqca Ermənistanın tənəzzülü daha dinamik xarakter alacaq və bu da işğalçının indiki Qarabağ siyasətini davam etdirməsini mümkünsüz hala gətirəcək.**

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

# Virusla mübarizə dövründə ÜST-lə münasibətlərdə Azərbaycanın bir çox ölkədən fərqi - könüllü yardım və donor müqaviləsi...

**Azərbaycan dövləti, öz ənənəsinə sadiq qalaraq, bəşəriyyəti bürüyən, dünya insanlarının sağlamlığını təhdid edən xəstəliklərlə, infeksiyalarla mübarizədə öz könüllü dəstəyini göstərir. Qlobal problemlərin aradan qaldırılmasında dövlətimiz öz maddi-mənəvi köməkliyini heç zaman əsirgəməyib.**

Hazırda dünyanı sınağa çəkən və insanlığın məhvinə yönələn COVID-19 virusunun tamamilə məhv edilməsi üçün ayrı-ayrı dövlətlər, eləcə də beynəlxalq təşkilatlar kollektiv tədbirlər görməkdədirlər. Əlbəttə, koronavirusla mübarizədə və bu bəlanın tamamilə sıradan çıxarılmasında Azərbaycanın göstərdiyi dəstək, etdiyi təmənnasız yardımlar xüsusi qeyd edilməlidir.

Aprelin 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşündə Prezident İlham Əliyev bildirib ki, Azərbaycan ÜST ilə donor müqaviləsi imzalayıb, ÜST-ə könüllü maliyyə yardımı ayırıb.

"...Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır. Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalamışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk" - deyə Prezident İlham Əliyev qeyd edib.

Tanınmış tibb mütəxəssisi, professor Paşa Qəlbinur bizimlə söhbətində bildirdi ki, Azərbaycan indiyə qədər dünyada baş verən bir sıra problemlərin aradan qaldırılması, qlobal bəlaların sıradan çıxarılması üçün maliyyə yardımları göstərib. Azərbaycan həm öz daxilində, həm də dünyada koronavirusla qlobal mübarizə çərçivəsində çox böyük işlər görür. Cenevrədə Azərbaycan Respublikası və Ümumdünya Səhiyyə Təşkilatı arasında donor sazişinin imzalanmasını yüksək dəyərləndirən P.Qəlbinurun sözlərinə görə, həmin donor sazişi dünyada koronavirus epidemiyasının yayılması risqinin qarşısının alınması istiqamətində beynəlxalq birliyin səylərinə töhfə məqsədilə Azərbaycan Respublikası Hökumətinin ÜST-ə könüllü maliyyə yardımının ayrılması barədə 2020-ci il 6 mart tarixli qərarına əsasən imzalanıb. P.Qəlbinurun dediyinə görə, Azərbaycanın ÜST-nin "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVID-19 müraciəti" Fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımı ayırması təsadüfi deyil, çünki dövlətimiz daim öz humanist və insanpərvər addımları ilə seçilib. Professor hesab edir ki, Azərbaycanın koronavirusla mübarizəyə təmənnasız olaraq könüllü şəkildə 5 milyon ABŞ dolları ianə etməsi və ÜST-lə donor sazişi imzalaması təqdirəlayiqdir. "Azərbaycan qlobal problemlərin həlli istiqamətində həmişə həssas olub və zaman-zaman müxtəlif problemlərin aradan qaldırılması üçün könüllü yardımlar edib. Azərbaycan heç bir ölkədən müraciət gözləmədən darda olanlara öz yardım əlini uzadıb. Hesab edirəm ki, COVID-19-la mübarizəyə Azərbaycan dövlətinin maliyyə vəsaiti ayırması təqdirəlayiqdir. Bilirsiniz ki, ÜST-ə koronavirusla mübarizə aparılması üçün könüllü yardımlar edən ölkələr elə də çox deyil. Amma Azərbaycan dövləti bu qlobal xəstəliyin, bəlanın aradan qaldırılması üçün təmənnasız şəkildə maliyyə dəstəyi göstərdi. Üstəlik də donor sazişi imzaladı. Azərbaycanın qlobal mənada koronavirusla mübarizə aparılması üçün ÜST-ə könüllü maliyyə yardımı etməsi və eyni zamanda da bu qurumla donor sazişi imzalamasının xüsusi əhəmiyyəti var. Məlumdur ki, Azərbaycan dünyada çox nüfuz qazanmış, öz yeri, öz çəkisi olan bir dövlətdir və onun koronavirusa qarşı qlobal mübarizə sahəsində öz rolu, öz payı var.

Bilirik ki, Azərbaycan koronavirusdan əziyyət çəkən ölkələrə də könüllü yardımlar edir və bu yardımlar da dövlətimizin humanizm prinsiplərinə sadiq qaldığını göstərir".

***Paşa Qəlbinur:*** *"Bu gün Azərbaycan yalnız öz daxilində həmrəyliyə nail olmayıb, o, həmçinin, koronavirusla mübarizə sahəsində qlobal həmrəyliyə nümunələr bəxş edib"*



*"...ÜST-lə imzaladığı donor müqaviləsi ilə qlobal həmrəyliyə necə böyük dəyər verdiyini bir daha dünyaya təqdim etdi"*

P.Qəlbinur, həmçinin, dövlətimiz tərəfindən səhiyyə sektoruna, xüsusilə hazırda COVID-19 virusu ilə mübarizəyə yönəlmiş diqqət və qayğının, həyata keçirilən bütün lazımi ehtiyat tədbirlərinin ÜST tərəfindən diqqətlə izlənildiyini və yüksək qiymətləndirildiyini bildirdi. Onun sözlərinə görə, ÜST-in baş direktoru Azərbaycan tərəfindən COVID-19 virusu ilə mübarizə üçün ayrılmış könüllü maliyyə töhfəsinin qlobal həmrəyliyin nümayişi olduğunu vurğulayıb.

**"Bu gün Azərbaycan yalnız öz daxilində həmrəyliyə nail olmayıb, o, həmçinin, koronavirusla mübarizə sahəsində qlobal həmrəyliyə nümunələr bəxş edib. Azərbaycan dövləti ÜST-ə ayırdığı maliyyə vəsaiti və koronavirusla mübarizə sahəsində ÜST-lə imzaladığı donor müqaviləsi ilə qlobal həmrəyliyə necə böyük dəyər verdiyini bir daha dünyaya təqdim etdi. Azərbaycanın koronavirusla mübarizə sahəsində göstərdiyi qlobal nümunələr dünya tərəfindən təqdir edilir" - deyə P.Qəlbinur qeyd etdi.**

***İradə SARIYEVA***

# Azərbaycanın koronavirusla mübarizəsində misilsiz nəticə - təsdiqlənmiş xəstə sayı ilə sağalanlar bərabərləşməyə başlayır

**Bu gün Azərbaycanda koronavirusa yoluxanların ən yüksək şəraitli xüsusi xəstəxanalarda müalicə olunması, onların müalicəsinə yüksək ixtiasalı tibb işçilərinin cəlb edilməsi nəticəsində bu virusa yoluxanlar arasında kütləvi sağalma prosesi gedir.**



Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumata görə, 1098 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 250 nəfər müalicə olunaraq sağalıb, 11 nəfər vəfat edib, 837 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Aprelin 12-nə olan məlumata görə, Azərbaycan Respublikasında 40 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, 50 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Operativ Qərargahın aprelin 11-nə olan məlumatına görə, 67 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, 41 nəfər müalicə nəticəsində sağalaraq evə buraxılıb.

Aprelin 10-na olan məlumatda isə 65 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Aprelin 9-da isə 104 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, 38 nəfər isə müalicə olunaraq sağalıb. Aprelin 8-də 105 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, eyni zamanda, koronavirus infeksiyasına yoluxmuş 19 nəfər müalicə olunaraq sağalıb.

***Leyla Bayramlı:** "Dövlətin həyata keçirdiyi davamlı tədbirlər nəticəsində artıq bu virusdan sağalanların sayı ilə yoluxanların sayı arasında fərq azalır"*

Son bir neçə gündə koronavirusa yoluxanların və müalicə olunanların say nisbətini götürdükdə, birmənalı olaraq deyə bilərik ki, xəstə sayı ilə sağalanların sayı bərabərləşməyə başlayıb.

Mütəxəssislərin fikrincə, Azərbaycanda koronavirusa yoluxanlar arasında kütləvi sağalma prosesinin yaşanması təsadüfi deyil. Həkimlər qeyd edirlər ki, koronavirusa yoluxan insanların yüksək şəraitdə müalicə edilməsi, onların müayinəsinin düzgün aparılması üçün lazım olan bütün avadanlıqların olması, o cümlədən, testlərin alınaraq xəstələrə tətbiq edilməsi bu nəticəni əldə etməyimizə səbəb olan amillərdəndir.

Həkim-terapevt Leyla Bayramlı bizimlə söhbətində bildirdi ki, koronavirusa yoluxanların gündəlik statistikasına baxdıqda sağalanların yoluxanlarla bərabərlik təşkil etdiyi açıq şəkildə görsənir. "Koronavirisa yoluxanlar arasında son həftələr sağalanların sayı daha çoxdur. Statistikaya baxsaq bunun şahidi olarıq. Məsələn, bir gündə 67 nəfərin koronavirusa yoluxduğu açıqlanır, eyni zamanda da sağalananların sayı qeyd edilir. Bir gündə 41 nəfər sağalaraq evə buraxılıb. Yaxud 40 adamda virus aşkarlanıb, həmin gün 50 nəfərin sağaldığı rəsmən təsdiqlənib. 40 nəfər yoluxub, 50 nəfər isə sağalıb.

*"...dövlət səviyyəsində çox mühüm addımlar atılıb"*

Ümumiyyətlə, koronavirusa qarşı həyata keçirilən mübarizə tədbirləri, karantin rejiminin daha da sərtləşdirilməsi, xəstəliyin yayılmasının qarşısının alınması üçün görülən bütün işlər bu prosesə müsbət təsir edir. Dövlətin həyata keçirdiyi davamlı tədbirlər nəticəsində artıq bu virusdan sağalananların sayı ilə yoluxanların sayı arasında fərq azalır. Bu virusa yoluxanların yüksək səviyyədə müalicə edilməsi onların sağalmasına səbəb olur.

Hazırkı dövrədək ölkəmizdə koronavirus infeksiyasına yoluxan şəxslərin sağalması, onların yenidən cəmiyyətə, ailəsinə qaytarılması üçün dövlət səviyyəsində çox mühüm addımlar atılır. Görülən bütün tədbirlər ardıcıl xarakter alıb. Artıq karantin tədbirlərinin sərtləşdirilməsi nəticəsində vətəndaşlar lazımsız yerə küçələrə çıxmağa elə də can atmırlar. Bu gün 1000 nəfərdən artıq koronavirusa yoluxan varsa, bundan sağalanlar 250 nəfərdir, ölüm faizi isə təxminən 1 faiz təşkil edir. Mütəxəssislər də deyirlər ki, Azərbaycanda koronavirusdan ölüm halları digər ölkələrlə müqayisədə çox aşağı həddədir".

O hesab edir ki, vətəndaşlar öz məsuliyyətlərini anlasalar və karantin rejiminin tələblərinə əməl etsələr, bir o qədər bu virusa yoluxanların sayı az olar.

***İradə SARIYEVA***

# İnsanlarımızda qəribəlik- virusa görə yardım alanda böyük fəallıq, karantin qaydalarının icrasında pərakəndəlik...

**Koronavirus pandemiyasının ilk günlərindən ölkəmiz xəstəliyin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atıb. Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə aprelin 20-dək dayandırılıb.**



Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınıb və ya ləğv edilib. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilib. Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılıb, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilib. Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılıb. Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur. Bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verilir. On beş mindən artıq Azərbaycan vətəndaşı müxtəlif ölkələrdən, o cümlədən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə, təxliyə edilib. Ölkəyə qaytarılmış bütün vətəndaşlarımız dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, xüsusi karantin zonalarında yerləşdirilib. Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fonduna təsis edilib. Dövlət vəsaiti ilə bərabər, ayrı-ayrı şəxslər, sahibkarlar və təşkilatlar fonda könüllü ianələr köçürür. Bu, Azərbaycan cəmiyyətində olan həmrəyliyin nümunəsidir.

Ancaq gəlin görək biz pandemiyanın yaratdığı şəraitlə bağlı hər istiqamətdə həmrəyliyimizi nümayiş etdirə bilirikmi? Təəssüf ki, yox. Ölkənin bütün təbliğat resursları pandemiyanın ölkəmizdə geniş yayılmaması üçün vətəndaşlara evdə qalmağı məsləhət görür. İlkin anlarda bu, məsləhət formasında oldu. Sonra məlum oldu ki, vətəndaşlarımız bu qadağalara riayət etmək istəmirlər. Küçələr insanlarla dolu olurdu. Mərhələli şəkildə məhdudiyyətlər sərtləşməyə başladı. Hazırda ölkədə xüsusi karantin rejimi hökm sürür. Yenə də biz insanlarımızın hansısa vasitələrlə karantin rejimini pozmaq niyyətlərini görürük. Hətta hüquq-mühafizə orqanları bu dönəmdə sərbəst hərəkətə əsas verən saxta arayışların satılması faktlarını da aşkar edib. Müşahidələrimiz göstərir ki, bəzən bu günlərdə belə avtomobillərin tıxacı ilə rastlaşırıq. Təəssüf ki, nəzərə çapan başqa bir faktor da var. Bəllidir ki, dövlət pandemiyadan zərər çəkən bütün təbəqələrə dəstək paketini təqdim edib. Biz müşahidə edirik ki, həmin paketlərdən yararlanmaq istiqamətində əhalinin bəzi təbəqəsində fəallıq yüksək səviyyədədir. Təbiidir ki, hər bir vətəndaşın dövlətdən ayrılan məbləği almaq hüququ var.

Buna kimsə nəsə deyə bilməz. Ancaq bir çox hallarda görürük ki, məhz pandemiyanın güzəştlərindən yararlanmaq istəyənlərin çoxu bu dönəm üçün qoyulan qadağalara əməl etməyənlərdir. Necə ola bilir ki, bir insan pandemiya ilə bağlı imtiyazı qəbul edir, amma qadağaya əməl etməkdə həvəsli deyil? Bu tərs mütənasibliyi vətəndaşlarımız özləri özlərinə sual etməlidir. Məntiqi cavab bu olar ki, hamı qaydalara əməl edib, evdə oturmağa çalışmalıdır.

***Məhəmmədəli QƏRİBLİ***

# Qlobal iqtisadi tənəzzülün qarşısının alınmasında neft amili... Enerji sahəsinin "güc mövqeyi"nə qayıtmasının vacibliyi gündəmdə...

**Dünya iqtisadiyyatında yaranan tənəzzülün qarşısının alınmasının əsas yollarından biri enerji bazarlarında qiymət enişinin qarşısının alınmasından və onu müəyyən həddə sabit saxlamaqdan keçir. Bir vaxtlar neftin qiymətinin ucuz olması istiqamətində aktiv fəaliyyət göstərən ABŞ özü də artıq bunu etiraf etməyə məcburdur.**

ABŞ-n energetika katibi Dan Bruyettbynin bu xüsusda açıqlamaları xüsusi diqqət çəkir. Onun sözlərinə görə, ABŞ hökumətinin fikrincə, dünya iqtisadiyyatının mövcud böhran vəziyyətindən tam çıxması üçün enerji bazarlarında sabitləşmə və neftin ucuzlaşmasının dayandırılması vacib şərtlərdir.

"Böyük iyirmilik" ölkələrinin energetika nazirləri arasında keçirilən videokonfransda bütövlükdə beynəlxalq birlik tərəfindən sürətli və qətiyyətli tədbirlərin zəruri olduğunu dilə gətirən Ağ Ev rəsmisi qeyd edir:"Böyük iyirmilik" ölkələrinin də ortaq mənafeyinə uyğun olan variant kimi enerji sahəsinin "güc mövqeyi"nə qayıtması vacibdir. Son məramımız aydındır: bütün dünyadakı insanların həyatını və gəlir mənbələrini qorumaq şərtilə qiymətlərdə sabitliyi bərpa etmək, sərbəst və açıq bazarları inkişaf etdirmək, dünyanı yenidən rifaha qaytarmaq. Mən hamını indiki və gələcək nəsillər xətrinə bu böhrana lazımınca ciddi münasibət göstərməyə səsləyirəm".

Bundan başqa, məhz ABŞ-ın sayəsində artıq yeni OPEC+ sazişi də qüvvəyə minib. Belə ki, aprelin 12-də OPEC və qeyri-OPEC ölkələri nazirlərinin videokonfrans formatında keçirilən 10-cu iclasında gündəlik neft hasilatının azaldılması ilə bağlı Əməkdaşlıq Bəyannaməsi təsdiqlənib. Qeyd edək ki, aprelin 9-da OPEC+ ölkələri nümayəndələrinin onlayn görüşü keçirilib. Görüşdə neft bazarının sabitliyi müzakirə olunub. İştirakçılar ümumi razılaşmaya nail olmayıblar. Çünki Meksika təklif edilmiş şərtlərdən imtina edib. Tərəflər Meksikadan hasilatı 400 min barrel azaltmağı istəsələr də, bundan imtina edilib. Nəhayət, prosesə ABŞ müdaxilə edib. Əməkdaşlıq Bəyannaməsinə edilmiş düzəlişlərə əsasən Meksikanın hasilat kvotaları may-iyun aylarında 400 min barrel əvəzinə 100 min barrel müəyyənləşdirilib. Meksikanın öhdəliyinin digər qismini kompensasiya etmək üçün ABŞ-ın öz hasilatını əlavə olaraq 300 min barrel azaltması ilə razılaşılıb. Beləliklə, gələn aydan neft hasilatında ciddi azalmalara gediləcək. Belə ki, OPEC+ üzrə gündəlik neft hasilatının mayın 1-dən 9,7 milyon barrel azaldılması qərarının icrasına yekdilliklə razılıq verilib. OPEC+ ölkələrinin qərarına Azərbaycan da öz dəstəyini ifadə edib. Energetika naziri Pərviz Şahbazov dünya neft bazarının sabitləşdirilməsi məqsədilə neft ölkələrinin mövqeyini yüksək qiymətləndirib: "Son görüş və OPEC+un qəti mövqeyi hasilatın azaldılması ilə bağlı qərarın icrası üzrə maneələri və tərəddüdləri aradan qaldırdı. Hasilata müdaxilələrlə neft bazarının tənzimləmə mexanizmi qlobal səviyyədə dəstəklənir və bu dəstək neft bazarının sabitləşdirilməsinə töhfə verəcək. Həmçinin bu qərar OPEC+ formatından kənardakı ölkələrin də hasilatı azaltmalarını təşviq edəcək". OPEC+ sazişi fonunda dünya bazarlarında qiymətlər artıq yüksəlir. Gələn aydan qiymət artımı özünü daha qabarıq şəkildə büruzə verəcək. İlk mərhələdə neftin bir barrelinin qiymətinin 45-55 dollar arasında dəyişməsi gözlənilir. Bu qiyməti əksər hasilatçı ölkələr, o cümlədən Azərbaycan ədalətli sayır. "SOCAR Turkey Enerji A.Ş"nin baş icraçı direktoru Zaur Qəhrəmanov bu xüsusda bildirir: "İnanırıq ki, neftin bir barrelinin qiymətinin 45-55 dollar arasında olması ABŞ, Səudiyyə Ərəbistanı və Rusiya ilə yanaşı, digər ölkələr üçün də ideal səviyyədir". O qeyd edib ki, bu qiymətlər neft hasil edən ölkələrin hamısı üçün uyğun ola bilər: "Amerikanın hasil etdiyi şist neftinin bir barrelinin maya dəyəri 30-35 ABŞ dolları məbləğindədir. Onlar da optimallaşdırma həyata keçirdilər. Buna görə də 45-55 ABŞ dolları arasında qiymətlər hamı üçün ideal səviyyə olar". Hesab edilir ki, gələn aydan hasilatın azaldılması fonunda qiymətlərin bu həddə çatmasını gözləmək olar. Digər tərəfdən, yaxın tezlikdə hasilatın azaldılmasında yeni kvota müəyyən edilməsi də gözlənilir. Bu zaman qiymətlərin 60 dollarlıq həddə çatması proqnozlaşdırılır. Bu isə, Azərbaycan da daxil olmaqla, digər hasilatçı ölkələr üçün komfort hədd sayılır.



"Verocy&Global Head Startegy" Fondunun direktoru Siril Viddershoven də hasilatın daha çox azaldılmasını vacib sayır. O qeyd edib ki, OPEC+ alyansı və "Böyük iyirmilik" qrupu gündəlik hasilatı 17-25 milyon barrel azltmayana qədər bazarları idarə etmək çətin olacaq. Ekspert əlavə edib ki, neftə tələbatın ən aşağı səviyyədə olduğu hazırkı vəziyyətdə 10-15 milyon barrel həcmində azalma təkcə qiymətlərin indiki səviyyədə qalmasını təmin edə bilər. Viddershovenin sözlərinə görə, Birləşmiş Ştatlar üçün də qiymətlərin artımı vacibdir: "ABŞ-ın neft ehtiyatlarının həcmi müvəqqəti olaraq yerli istehsalçılardan xam neft qəbul etməyə imkan verir və onların da dolması yerli şirkətlərin iflası ilə nəticələnə bilər. Eyni zamanda, şist neftinin gündəlik 2-4 milyon barrel azalması bazarlarda sabitlik yarada bilər.

Ona görə, hasilatin daha da azaldılması üçün ABŞ-ın fəaliyyətini davam etdirməsi gözləniləndir". "Rystad Energy" şirkətinin neft bazarları üzrə analitiki Luis Diksonun fikrincə, hazırkı vəziyyətdə OPEC+ alyansının əməkdaşlığı və atdığı addımlar misilsizdir. O qeyd edib ki, indi neft hasilatçısı ölkələr daha çox həmrəy olmalı, kompromis variantlara üstünlük verməlidir. Ekspert əlavə edib ki, 2020-ci il ərzində hasilatın gündəlik 10 milyon barrel azaldılması və koronavirus pandemiyası ilə bağlı vəziyyətin sabitləşməsi qlobal neft bazarında müsbət meyllər yaradacaq.

***Nahid SALAYEV***

# Azərbaycan koronavirusa qarşı 18 xüsusi laboratoriya ilə döyüşür - yetərlidirmi...

## Rəşad Mahmudov: "Ölkəmiz virusla mübarizəyə fəal başladı"

**Dünyanı cənginə alan koronavirusun əhatə dairəsi böyüməkdə davam edir. Müxtəlif ölkələrdə hər gün xəstəliyə yeni yoluxma halları, ölüm faktları qeydə alınır. Maraqlıdır ki, müasir texnologiyalar, innovativ yeniliklərlə süni intellekt formalaşdıran, yəni sürətlə inkişaf etməkdə olan elm və texnologiya əsrinin insanı bu virus qarşısında hələ də aciz durumdadır.**



Prosesin belə davam etməsi, əlbəttə ki, koronavirusun qlobal pandemiyaya çevrilməsinə real zəmin yaradıb.

Hər gün Dünya Səhiyyə Təşkilatının yaydığı məlumatlara əsasən demək olar ki, xəstəliyin müalicəsi yoxdur, hətta dünyanın inkişaf etmiş ölkələri belə, virusun qarşısını ala bilmirlər. Dünyada, ayrı-ayrı ölkələrdə ümumi mənzərəyə nəzər yetirsək, acınacaqlı durumun şahidi olarıq. Avropa hazırda dünyada koronavirus pandemiyasının ən ağır şəkildə təzahür etdiyi regiondur. Avropada, Çin istisna olmaqla, dünyanın bütün digər ölkələrindən daha çox yoluxma və ölüm halı qeydə alınıb. Epidemiyanın Çində pik dövrü ilə müqayisədə Avropada hər gün daha çox yoluxma halı baş verir. Dövlətlərin sərhədləri bağlanıb, bütün hava uçuşları dayandırılıb.

Ancaq koronavirusun yayılmaması üçün hansı ölkələr ki, səmərəli qabaqlayıcı tədbirlər görürlər, orada vəziyyət qənaətbəxşdir. Belə ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdəki bugünkü durum göstərir ki, dövlət bütün mümkün qabaqlayıcı və operativ tədbirləri həyata keçirir. Bu baxımdan biz hətta bir çox ölkəni qabaqlayırıq. İnfeksiyanın dünya ölkələrində geniş yayılması ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunması Azərbaycanda əlavə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zərurətə çevirib.

Xəstəliklə mübarizə məqsədilə,onun qısa müddətə aşkar olunması üçün ölkəmizdə müasir laboratoriyalar yaradılıb.

Hətta Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyev aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşündə çıxışı zamanı da bu məsələyə toxunub. Prezident qeyd edib ki, indiyə kimi ölkə üzrə 60 minə yaxın test keçirilib: "Əhalinin hər bir milyon nəfərinə düşən testin sayı 5200-dən artıqdır. Aparılan testlərin sayına görə dünyada 30-cu, hər milyon əhaliyə görə aparılan testlərin sayına görə 40-cı yerlərdəyik. Azərbaycanda testlərin aparılması üçün 18 laboratoriya fəaliyyət göstərir, onların 5-i yeni yaradılıbdır".

*"Xəstəliyin ilk günlərində günlük test sayı 200-300 olduğu halda, qısa müddətdə bunların sayı artdı"*

Azərbaycanda testlərin aparılması üçün mövcud olan laboratoriyalar virusla səmərəli mübarizə işində nə kimi rol oynayır?

Deputat, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudovun sözlərinə görə, ay yarım öncə koronavirusla bağlı ölkədə gün ərzində 200-300 test keçirilirdi. Ancaq indi isə 3900-4000 test keçirilir: "Onu da deyim ki, nəinki region, hətta Avropanın aparıcı ölkələri ilə eyni səviyyədə test aparılır. Məlumat üçün bildirim ki, 18-ə yaxın laboratoriya fəaliyyət göstərir. Həmin laboratoriyaların 6-sı regionlarda fəaliyyət göstərir. Bu günlərdə isə Gəncədə tam avtomatlaşdırılmış laboratoriya fəaliyyətə başlayacaq".

Millət vəkili onu da əlavə etdi ki, ölkəmiz virusla mübarizəyə fəal başladı. Dünya və regional hadisələrlə müqayisədə bir neçə faktı diqqətinizə çatdırmaq istəyirəm: " Xəstəliyin ilk günlərində günlük test sayı 200-300 olduğu halda, qısa müddətdə bunların sayı artdı.

Başda Heydər Əliyev Fondu olmaqla aidiyyəti qurumların çevik addımları nəticəsində artıq hazırda gündə dörd mindən artıq test aparılır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, vaxt amilinin, həkimlərin peşəkarlığının və mövcud imkanların vəhdəti Azərbaycanın az itkilərlə bu vəziyyətdən çıxmasına şərait yaradıb. Hazırda Azərbaycanda 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alırlar. Ən müasir xəstəxanalar koronavirus xəstələrinin müalicəsi ilə məşğuldur. Cəmi bir ay ərzində mindən çox çarpayılıq, ən müasir standartlara uyğun tibbi müəssisələr istifadəyə verilib və orada koronavirus xəstələri müalicə alırlar".

**Günel CƏLİLOVA**

# Koronavirusdan bir dəfə sağalanlar yenidən yoluxa bilərmi - həkim izahı...

## Adil Qeybulla: "Koronavirusa yoluxub sağaldıqdan sonra ona qarşı immunitet formalaşır"

**Çinin Vuhan şəhərində ortaya çıxan yeni növ koronavirus dünya miqyasında yayılmaqda davam edir. Dünyanın əsas səhiyyə institutları koronavirusa qarşı effektli təsirə malik vasitənin tapılması üzərində aylardır baş sındırırlar.**



Lakin əldə olunan ən yaxşı nəticə, sadəcə, insanların bu virusdan qorunmaq üçün özlərini təcrid və gigiyenik qaydalara riayət etmələridir.

Bir çoxunu isə başqa bir sual maraqlandırır. Artıq virusa yoluxan minlərlə insanın ona qalib gələrək sağaldığı deyilir. Koronavirusa yoluxub sağalananların yenidən yoluxma ehtimalı varmı?

Dünya alimləri koronavirusa yoluxub sağalananlarla bağlı fərqli fikir bildirirlər.

Çin Elmlər Akademiyasının üzvü Van Fuşen COVID-19-un səbəb olduğu pnevmoniyanın, bir qayda olaraq, sağaldıqdan sonra çətinlik yaratmadığını deyib. Onun sözlərinə görə, xəstəlik çox zaman insan sağlamlığında heç bir iz qoymadan keçib gedir. Buna görə də təşvişə səbəb yoxdur. Lakin virusun ağır nəticələri özünü ondan sağalan yaşlı insanlarda sonradan büruzə verə bilər: "Bir sevindirici xəbər odur ki, koronavirusa təkrar yoluxma risqi çox azdır. Sağalanlarda ona qarşı immunitet yaransa da, insanların xəstəliyə qalib gəldikdən sonra özlərini necə hiss etmələrinə dair tam informasiyalar mövcud deyil".

Türkiyəli professor Ateş Karanın da koronavirus sonrası insanları gözləyən təhlükə ilə bağlı fikirləri maraqlıdır: "Bu xəstəliyi heç də ciddiyə almamaq tamamilə yanlışdır. Koronavirus ağır və ölümcül bir xəstəlikdir. Evdə qalmanız vacib şərtdir. Xəstələrin bir çoxu sağalsa da, onların ağciyərlərində zədələr qalır. Bir futbolçu bu xəstəliyə yoluxarsa, həyatının qalan qismində bir daha futbol oynaya bilməmə ehtimalı çox yüksəkdir".

*"Koronavirusa yoluxma zamanı ağciyərdə fibroz toxuma inkişaf edir, bu sonra da qalır"*

Professor, tibbi ekspert Adil Qeybulla bildirdi ki, xəstəlikdən sonra ona qarşı immunitet formalaşır: "Belə fikirlər var ki, koronavirusda da möhkəm immunitet formalaşır.

Təkrar yoluxma ilə də bağlı məlumatlar yayılır, amma bunlar tam təsdiqini tapmayıb. Koronavirus yoluxma zamanı ağciyərdə fibroz toxuma inkişaf edir, bu sonra da qalır. Bunu sonradan müxtəlif fizioterapevtik üsullarla, təbii üsullarla müalicə etmək mümkündür. Təbii ki, müəyyən qədər qalır, amma bu da insanın ölümünə səbəb olmaz. İndiyə qədər elə bir ciddi ağciyər çatışmazlığı fəsadı vermə halı müşahidə olunmayıb. Belə ciddi nəticələr, adətən, ölümlə nəticələnir".

**Günel CƏLİLOVA**

# Təhsil Nazirliyindən maraqlı sosial layihə - işini itirən valideynlərə dəstək kampaniyası...

**Koronavirus pandemiyasının yayılması nəticəsində dünyada saysız problem yaşanmaqdadır. Bilirik ki, pandemiya ilə əlaqədar olaraq insanlar arasında işini itirənlər də var. İşini itirən şəxslərin böyük əksəriyyətinin valideyn olduğu məlumdur.**

*"Təhsil Nazirliyinin belə ailələrə yardımlar etməyə baslaması bu istiqamətdə aparılan növbəti humanist addımdır"*

## ***Nadir İsrafilov:*** *"Bütün dünyanı ağuşuna alan qlobal təhlükədən çıxış yolu axtarmaq naminə..."*

Azərbaycanda pandemiya ilə əlaqədar olaraq nə qədər şəxsin işini itirdiyini deyə bilmərik, amma dövlət bütün özəl şirkətlərə müraciət edərək onları işçiləri ixtisara salmamağa çağırıb.

Qeyd etdiyimiz kimi, dövlət işsiz vətəndaşlarına da hər zaman diqqət və qayğı ilə yanaşıb. Bu gün də cəmiyyətimizin bütün həssas qruplarına diqqət göstərilir.

Pandemiyaya görə işini itirən, həmçinin, aztəminatlı ailələrə, valideynlərə Təhsil Nazirliyi də diqqət göstərir. Məlumdur ki, nazirliyin xəttilə orta məktəblərdə də pandemiya ilə bağlı işini itirən valideynlərə dəstək kampaniyası başlanıb və belə ailələrə yardımlar göstərilir. Bu, bir könüllülük işidir və məktəblər bu işə böyük həvəslə qoşulublar.

Pandemiyaya görə işini itirən valideynlərə göstərilən dəstəyi yüksək qiymətləndirən tanınmış təhsil eksperti, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov "Bakı-Xəbər"ə bildirdi ki, belə ağır durumda müxtəlif qurumların, təşkilatların işini itirən valideynlərə dəstək göstərməsi müsbət haldır: "Bu gün bəşəriyyəti bürüyən, sosial-iqtisadi həyatın bütün sahələrini əhatə edən ümumi bəlaya qarşı mübarizədə bu vaxta qədər göstərildiyindən daha artıq birlik, həmrəylik, mütəşəkkillik və anlaşıqlıq nümayiş etdirilir, dövlətimizin bu istiqamətdə apardığı qabaqlayıcı və davamlı işlər bütün dünyaya nümunə kimi qiymətləndirilir. O da danılmazdır ki, iradəmizdən asılı olmayaraq, yaranmış vəziyyətlə bağlı mövcud durum həyatımızın bütün sahələri kimi, təhsilimizə də təsirsiz ötüşməyib. Ancaq ədalət naminə etiraf etməliyik ki, prosesi sabitləşdirmək, vəziyyətdən mümkün qədər itkisiz çıxmaq üçün dövlətimiz tərəfindən bütün lazımi addımlar atılır, davamlı və dayanıqlı tədbirlər həyata keçirilir, ehtiyat mexanizmlərinə, mövcud olan digər resurslara istinad etməklə ümumi işin xeyrinə olan bütün metod və vasitələrə əl atılır. Verilən rəsmi məlumatlara görə, Azərbaycandakı məktəblərin 85 faizi internet şəbəkəsinə qoşulub. Ümumilikdə, şəbəkəyə qoşulmuş ümumtəhsil müəssisələrinin sayı 3807-yə çatdırılıb. Şəbəkəyə qoşulmuş ümumtəhsil müəssisələri bütün şagirdlərin




93%-ni, pedaqoji heyətin isə 89%-ni əhatə edib. Bütün deyilən və deyilməyən istiqamətlərdə işlər davam etdirilir".

N.İsrafilov vurğuladı ki, təhsilimizi ayaq üstə saxlamaq üçün Təhsil Nazirliyi müəllimlər, şagirdlər və valideynlər arasında aktiv maarifləndirmə və izahat işlərini davam etdirmək, təhsilalan-təhsilverən əlaqələrini imkan daxilində onlayn müstəvisinə keçirmək, video, qrafika, səs və digər multimedia vasitələrinə, elektron resurslara, teledərslərə, vizuallaşdırılmış dərs formalarına, kifayət qədər dərslik, dərs vəsaiti, sinifdən xaric oxu materialları yerləşdirilmiş müvafiq portallara, adi telefon bağlantısı və digər bu kimi ehtiyat mexanizmlərinə, mövcud olan bu kimi digər resurslara istinad etməklə, müvəqqəti fasilədən yaranan boşluqlarla əlaqədar passivliyi aradan qaldırmaq, mümkün olan bütün metod və formalardan istifadə etməklə təhsilalanların aktivliyinin qorunub saxlanılmasına nail olmaq üçün əlindən gələni əsirgəmir.

"Nazirliyin "Microsoft" şirkəti ilə əməkdaşlıq çərçivəsində "Virtual məktəb" layihəsinə start verməsi, qurumun yeni 146-3 "Qaynar xətt" xidmətinin fəaliyyətə başlaması, əlaqə yaradan hər bir vətəndaşa məktəb psixoloqları tərəfindən telefon vasitəsilə psixoloji konsultasiya təşkil edilməsi görüləcək işlər istiqamətində yeni addım olub, bu, istənilən halda, vətəndaşa mənəvi dəstək rolunu oynayacaq. Orta məktəblərdə pandemiya ilə bağlı işini itirən valideynlərə dəstək kampaniyasının başlanması və Təhsil Nazirliyinin belə ailələrə yardımlar etməsi bu istiqamətdə aparılan növbəti humanist addımdır. Bu gün nəyin özünü doğruldacağını, nəyin doğrultmayacağını mübahisələndirmək zamanı deyil. Bu gün sonsuza qədər düşünüb-daşınmaq yox, sağlam düşüncə nümayiş etdirməklə, bütün dünyanı ağuşuna alan qlobal təhlükədən çıxış yolu axtarmaq naminə dözümlülük göstərmək, bütün səy və imkanları ümumi mənafeyə yönəltmək, pis günlərin arxada qalacağına dair vətəndaşlarımızda inam yaratmaq zamanıdır" -deyə N.İsrafilov bildirdi.

***İradə SARIYEVA***

# Market satıcıları və kassirlər virusun əsas daşıyıcıları kimi... Əlcək yox, pul əl ilə sayılır...

**Koronavirus pandemiyası sərhəd tanımır, ən qısa müddətdə fərqli coğrafiyalarda insanların sağlamlığını və həyatını təhdid edir. Bütün səylərə baxmayaraq, hələlik dünyanın heç bir ölkəsində bu virusun qarşısının alınmasına nail olunmayıb.**

## ***Eyyub Hüseynov:*** *"Marketlər koronavirusun yayılmasına şərait yaradırlar"*



Güclü səhiyyə sisteminə malik bir sıra Avropa ölkələrində belə, koronavirusa qarşı səmərəli mübarizə aparmaq mümkün olmur. Adıçəkilən virusun ölkəmizdə sürətli yayılmaması üçün qabaqlayıcı tədbirlər görülüb.

Buna baxmayaraq, bəzi marketlərdə çalışan kassirlər ya əlcəkdən istifadə etmir, ya da bir əlcək vasitəsilə müştərilərdən pul alıb, qalıq qaytarırlar. Beləliklə, eyni əlcəkdən virus müxtəlif insanlara yoluxur.

Məsələ ilə bağlı fikir bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, marketlər koronavirusun yayılmasına şərait yaradırlar: "Kassaya nəzarət edən şəxsin əlində əlcək ya olur, ya da olmur. Hansısa kassirin əlində əlcək varsa, o, alıcıdan pul alıb sayır, qalıq pulu qaytarır və s. Bu zaman eyni əlcəkdən virus müxtəlif insanlara keçə bilər. Virusun hansı yollarla yoluxduğunu nəzərə alsaq, onda elə marketlər ən böyük yoluxma məkanıdır".

*"Hansısa kassirin əlində əlcək varsa, o, alıcıdan pul alıb sayır, qalıq pulu qaytarır, bu zaman eyni əlcəkdən virus müxtəlif insanlara keçə bilər"*

Həmsöhbətimiz hesab edir ki, problemdən çıxış yolu nağd ödənişlərdən imtina etməkdir: "Problemi həll etmək o qədər də asan məsələ deyil.

**Ən real çıxış yolu budur ki, nağd ödənişlərdən mümkün qədər imtina etmək lazımdır. Daha çox kartla ödənişlərə üstünlük verilməlidir. Yalnız bu halda vəziyyəti yüngülləşdirmək olar".**

***Günel CƏLİLOVA***

**Azteminatlı ailələrə dövlət dəstəyinin gücləndirilməsi tədbirləri ünvanlı dövlət sosial yardımı proqramı çərçivəsində də davam etdirilir və proqramın əhatə dairəsi genişləndirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, son 10 gündə ünvanlı yardım alan ailələrin sayı 14 faiz və ya 9 500 ailə artaraq 78 min 500-ə çatıb, yardım alan ailə üzvlərinin sayı isə 40 min nəfər artaraq 330 mini ötüb.**

*"Karantin rejimi dönəmində əhalinin sosial vəziyyətinin normal halda olması üçün onlara yardım edilir"*

# Koronavirusla mübarizə dövründə ünvanlı yardım alan azərbaycanlı ailə üzvlərinin sayı 40 min artdı

***Fuad İbrahimli:** "...Azərbaycan hökuməti bu sahədə cəld tərpəniş etdi"*

Eyni zamanda, ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti xüsusi karantin rejimi müddətində bitmiş ailələrə bu yardımın verilməsi müddəti uzadılıb.

Karantin dövründə insanlara göstərilən diqqət və qayğı yüksək qiymətləndirilir. Hər ailəyə düşən ünvanlı yardımın orta aylıq məbləği də artıb. 2020-ci ilin əvvəli ilə müqayisədə bu məbləğ 10 faizədək artaraq 222 manatı ötüb. Qısa müddət ərzində yardım alan ailə üzvlərinin sayı isə 40 min nəfər artaraq 330 mini ötüb.

İqtisadçı-ekspert Fuad İbrahimli qeyd etdi ki, Prezident İlham Əliyev koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, əhalinin sosial rifahının qorunması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi üçün lazımi işlər görülməlidir: "Məlumdur ki, artıq ehtiyacı olan ailələrə yardım verilir. Onların sosial rifahının təmin olunması üçün dövlət tərəfindən vəsait ayrılıb. Məlumdur ki, koronavirus bəlasından bütün dünya ölkələri əziyyət çəkir. Elə ölkə var ki,



əhalinin sosial vəziyyətinin, iqtisadiyyatın tarazlığının pozulmaması ilə bağlı hər hansı bir iş görməyib. Ancaq sevindirici haldır ki, Azərbaycan hökuməti bu sahədə cəld tərpəniş etdi. Karantin rejimi dönəmində əhalinin sosial vəziyyətinin normal halda olması üçün onlara yardım edilir".

Həmsöhbətimiz bildirdi ki, 10 gün ərzində yardım alan ailələrin sayı artıb. Onun fikrincə, qarşıdakı günlər ərzində rəqəm daha da artacaq.

***Günel CƏLİLOVA***

**Məlum olduğu kimi, koronavirus pandemiyası ilə əlaqədar tətbiq edilən karantin rejimi səbəbindən bir sıra iş yerləri fəaliyyət göstərmir. Bu səbəbdən avtomobil sahibləri nəqliyyat vasitələrini yaşadıqları evlərin həyətlərində park etməli olublar. Bu gün Bakıda binaların bir çoxunda avtomobilləri park etmək üçün xüsusi dayanacaqlar yoxdur.**

*"Heç kəs anlamaq istəmir ki, vətəndaşlar çıxılmaz duruma düşdükləri üçün şəxsi avtomobillərini həyətlərdə park edirlər"*

# Koronavirusla mübarizə dövründə Bakıda parklama problemi - avtomobillər həyətlərdə, FHN narazılıq etməkdə, işləməyənlər maşınlarını harada saxlasın...

***İlqar Hüseynli:** "Əvvəlcə vətəndaşlara avtomobilləri park etmək üçün alternativ yerlər təklif olunmalıdır, ondan sonra..."*

Ona görə də çoxları məcburiyyət üzündən avtomobili həyətlərdə saxlayır.

Bu arada, Fövqəladə Hallar Nazirliyi avtonəqliyyat vasitələri sahiblərinə müraciət edib. Müraciətdə qeyd edilib ki, avtomobillər xilasedicilərə mane olan yerlərdə saxlanır: "Bir çox hallarda pərakəndə şəkildə, binaların girişlərində, avtomobil yollarının hərəkət hissəsində və ya yanğına qarşı su təchizatı sistemlərinin bilavasitə yaxınlığında park edilmiş avtomobillər fövqəladə hadisə zamanı xilasetmə, yanğınsöndürmə və digər iriqabaritli xüsusi təyinatlı avtomobillərin hərəkətinə maneə yaradır, habelə yanğınların söndürülməsi zamanı su hovuzları və hidrantlardan suyun götürülməsini çətinləşdirir, bəzi hallarda isə mümkünsüz edir. Son zamanlar ölkəmizdə baş verən yanğınların təhlili, həmçinin, bir sıra xarici ölkələrdə müşahidə olunan yanğınlar məsələ ilə bağlı vaxtında zəruri tədbirlər görməyi tələb edir".

Müraciətdə vətəndaşlara belə hallara yol verilməməsi tələb olunur.

Nəzərə alsaq ki, bu gün Bakı şəhərində avtomobilləri park etmək üçün yerlər çox məhduddur, o zaman, vətəndaşlar belə vəziyyətdə nə etməlidirlər? Çıxış yolu nədədir?

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, əvvəlcə vətəndaşlara avtomobilləri park etmək üçün alternativ yerlər təklif olunmalıdır, ondan sonra belə tələblərlə çıxış etmək lazımdır: "Alternativlər təklif etmədən vətəndaşlardan bunu tələb etmək doğru deyil. Nəzərə almaq lazımdır ki, camaat məcburiyyət üzündən avtomobili həyətlərdə



park edir. FHN insanların yaşadıqları binalara yaxın yerlərdə dövlətə məxsus obyektlərin ərazisində, müvafiq yeraltı dayanacaqlarda şərait yaratmalıdır. Lazım gələrsə, ümumtəhsil məktəblərinin ərazisindən də istifadə etmək olar. Bütün bunlardan sonra vətəndaşlardan müvafiq normalarə əməl olunmasını tələb etmək doğru olar. Heç kəs anlamaq istəmir ki, vətəndaşlar çıxılmaz duruma düşdükləri üçün şəxsi avtomobillərini həyətlərdə park edirlər. Ona görə də buna görə vətəndaşları qınamaq doğru olmaz.

**Bir məqamı qeyd edim ki, son illər Bakı şəhərində necə gəldi çoxsaylı bina inşa edilib. Ancaq həmin yaşayış binaları tikilərkən bir çoxunda avtomobilləri park etmək üçün yerlər inşa edilməyib. Ümumiyyətlə, bunu nəzərə almayıblar. Başqa bir tərəfdən, binaların zirzəmilərində avtomobillərin park edilməsi üçün qoyulan qiymətlər baha olduğundan, vətəndaşlar bundan narazıdırlar. Deməyim odur ki, bu sahədə bir sıra problemlər var".**

***Vidadi ORDAHALLI***

№ 56 (4187) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

14 APREL 2020-ci il

www.baki-xeber.com



# Marsda nəhəng piramida tapıldı

**Məşhur virtual arxeoloq Scot Uorinq yeni tapıntısı ilə insanları təəccübləndirməyi bacarıb.**

"Milli.Az" xəbər verir ki, o, Marsın səthinin görüntüsündə şübhəli obyekt aşkar edib. Uorinqin fikrincə, bu, inşa edilən bir binadır.

Binanın başında kiçik bir qüllə görünür. Ufoloq bunun altı tərəfdən qapısı olan piramidaya bənzədiyini bildirir. Onun bildirdiyinə görə, piramidanın uzunluğu təqribən 10 kilometrdir.

## Piyada gəzməyin 15 faydası...

**Piyada gəzmək insan həyatını çətinləşdirməyən, bədəni yormayan, hər yaşa uyğun idman növüdür. "Teleqraf.com" bildirir ki, sıx iş rejimi, ictimai nəqliyyat problemləri insanları tənbəlləşdirir. Halbuki, hərəkət ürək-damar xəstəliklərindən diabetə qədər bir çox xəstəlik risqindən insanı qoruyur.**



Gündə ən azı 30 dəqiqə sürətlə gəzmək sağlamlığınıza güc qatır. Piyada gəzməyin 15 faydasını sizə təqdim edirik: 1. Əzələləri gücləndirir. Bədən əzələləri güclənir, ürək əzələləri işini daha sürətli görür, qan təzyiqi tənzimlənir. 2. Beyin-damar və ürək-damar xəstəlikləri risqini azaldır. Qan axını və miqdarını artıraraq dövranı yaxşılaşdırır. Əsas damarlardan əlavə ürək əzələsinin yan damarlarının qidalanması çoxalır. Beləliklə, əsas damarlarda tıxanmaların yaratdığı ziyan minimuma enir. 3. Əzələlərin elastikliyini artırır. Hərəkətsizlik səbəbindən yaranan sərtlik azalır.

Ayaq, baldır və onurğa əzələləri güclənir. 4. Sümükləri gücləndirir. Sümük əriməsinin qarşısını almaq və ya azaltmaqda rol oynayır. 5. Piylənmə risqini azaldır. Maddələr mübadiləsi güclənir, yağ yanır. Orta hesabla 5 km sürətlə gəzmək saatda 400-500 kalori yandırır. Bu, hər gün təkrarlanarsa, ay ərzində 2-3 kiloqram arıqlamaq mümkündür. 6. Yaradıcılığı dəstəkləyir. Beynin oksigen tədarükü artır, yaradıcı düşüncə və zehnin potensialı artır. 7. Həzmi asanlaşdırır, qəbizliyi azaldır. 8. Yuxusuzluq üçün faydalıdır. Yuxu keyfiyyətini yaxşılaşdırır, rahatlamağı təmin edir. 9. Qocalma müddətini gecikdirir. 10. Depressiyanın təbii müalicəsidir. 11. Stressi azaldır. Gərginlikdən uzaqlaşmağa kömək edir. Beyində endorfin, seratonin və dopamin səviyyəsini artırır. 12. Xərçəng risqini azaldır. Kolon (bağırsaq), prostat, döş xərçəngi kimi xərçəng növlərinin inkişaf risqi zəifləmiş olur. 13. İştaha nəzarəti təmin edir. İştaha nəzarət etməyə imkan verir, insulin müqavimətini pozur. 14. Alkoqol, kofein və nikotini xaric edir. 15. Xolesterolu azaldır.

## Xalis balı necə ayırd etmək olar?

**Qışda soyuqdəymədən qorunmağın ən dadlı vasitələrindən biri də baldır. Lakin bizi çox vaxt bir problem narahat edir. Görəsən aldığımız bal xalisdirmi? "Milli.Az" xalis balı ayırd etməyin üsullarını təqdim edir. Balın arı şanı balı, şabalıd balı, pətək balı, şam balı, kəklikotu balı və s. növləri var.**

Ən keyfiyyətli bal saf və nisbətən qatı olan baldır. Bu faydalı təam qlükoza, fruktoza, dəmir, kalsium, fosfat, natrium, xlor, kalium, maqnezium kimi minerallardan ibarətdir. B1, B2, B3, B5, B6 vitaminləri ilə olduqca zəngin qida qaynağıdır. Buna görə balın güclü antiseptik, antibakterial xüsusiyyəti var. Bu xüsusiyyəti sayəsində bir çox xəstəliyin qarşısını alır. Bal çox güclü enerji qaynağıdır. Qida dəyəri yüksək olan bal qan azlığından əziyyət çəkənlər üçün əla vasitədir. Bədəni və gözləri qüvvətləndirir, boğaz ağrıları və iltihablarda faydalıdır, mədə və bağırsaqlardakı yaralara xeyirlidir, əsəbləri sakitləşdirir. Bal güclü ürək döyüntüsü və yüksək təzyiqdən qoruyur. Qanı təmizləyir, qan dövranını yaxşılaşdırır, damar sərtliyinə faydalıdır. Südə qarışdırılmış bal bağırsaqdakı parazitləri məhv edir. Bal yaraların tez sağalmasına kömək edir. İlıq su ilə qarışdırıb, şərbət hazırlayaraq içilsə, bir neçə dəqiqədə qana qarışaraq bədənə enerji verir. Şərbəti ilə qarqara boğazı rahatlaşdırır. Qeyd edək ki, 1 yaşına kimi uşaqlara bal verilməsi məsləhət görülmür. Bundan əlavə, balın kosmetoloji faydaları da var. Təbii arı balı dərinin gözəlliyi üçün əvəzsiz vasitədir: dərini nəmləndirir, yumşaldır və qidalandırır. Hazırda satışda baldan hazırlanmış müxtəlif şampunlar, sabunlar, kremlər və digər kosmetoloji vasitələrə rast gəlmək olar. Bal seçimində xarlanan ballara daha çox üstünlük verməliyik. Balın yüz illərlə xarab olmadan qalmasının səbəbi xarlanmasıdır. Xarlanmış bal heç vaxt öz keyfiyyətini itirmir. Həmçinin, bu şirin qidanı alarkən olduqca diqqətli davranmalıyıq. Mütləq etibar etdiyimiz, sınanmış mənbələri seçməliyik. Çünki çox vaxt şəkər ilə düzəldilmiş və ya qatışdırılmış bal satan hiyləgərlərə aldanıb, yanlış seçim edirik. Təqdim etdiyimiz üsullarla aldığınız balın xalis olub-olmadığını asanlıqla yoxlaya biləcəksiniz. Balı qaşıqla götürdükdən sonra qaşığı çeviririk, bal qırılmırsa, deməli, heç bir qatqısı yoxdur. İkinci üsul isə balın qoxusuna görə ayırd edilməsidir. Məsələn, şam balından mütləq şam ətri gəlməlidir. Süni hazırlanmış balların isə heç bir qoxusu olmur.





**Qoç** - Ünsiyyətdə aktivlik artır, yeni tanışlıqlar mümkündür. Dost və qohumluq əlaqələri daha da möhkəmlənir. Günün ikinci yarısı münasibətlərdəki ahəngdarlıq pozulacaq, fikir ayrılıqları üçün xeyli səbəb yaranacaq.



**Buğa** - Gün üreyinizcə keçmir: əhvalınız "bir qədər pis" və "murdar" kateqoriyaları arasında "var-gəl" edir. Münasibətlərdə çox dəyər verdiyiniz bir insanla əlaqəni poza bilərsiniz, səbəbi isə çox əhəmiyyətsiz ola bilər.



**Əkizlər** - İntellektual potensialınız çox yüksəkdir. Bu da o deməkdir ki, öhdəsindən gələ bilməyəcəyiniz problem yoxdur. Eksperimentlərə hazırsınız və onlar dedikcə əla nəticələr verir.



**Xərçəng** - Yaxşılığa doğru dəyişiklikləri günün ikinci yarısında gözləyin. Emosional cəhətdən boşalma olacaq, bu sizin xeyrinizədir. Yeni ideyalarınız olacaq, həyatınızı yaxşılaşdırmağın yolunu tapacaqsınız.



**Şir** - Nəzərə almaq lazımdır ki, bu gün müstəqil hərəkət etməli, kimdənsə kömək gözləməməlisiniz. Əgər bu gün təmkinli olmasanız, kinayəli iradlar bildirsəniz, sonra peşman olacaqsınız.



**Qız** - Sürprizlərlə dolu gündür. Hətta arzulamağa belə cəsarət etmədiyiniz işlər baş verir. Öz gücünüzə inanın - uğur qazanmaq üçün bu çox vacibdir. Darıxmağa imkan olmayacaq: işləriniz çox və hər biri özlüyündə maraqlıdır.



**Tərəzi** - Gün yaxşı başlayır. Əhvalınız eladır, nə istədiyinizi yaxşı bilirsiniz və buna necə nail olmaq barədə təsəvvürünüz də aydındır. Yalnız bir məqamı diqqətdən qaçırırsınız: ətrafınızdakı insanların da istəkləri, arzuları, prioritetləri və həyatda maraqları var.



**Əqrəb** - Təhsil və dünyagörüşünün artırılmasına xidmət edən məşğuliyyətlərə üstünlük verin. Ən adi vərdişlərdə özünüz üçün yenilik tapa bilərsiniz. Uzaqdan vacib xəbərlər ala bilərsiniz.



**Oxatan** - Əvvəlcədən qurduğunuz planları reallaşdırmaq imkanı yaranmır və siz pərt olursunuz. Münasibətlərdə ehtiyatlı olun, başqasının təsiri altına düşə bilərsiniz.



**Oğlaq** - Bu mürəkkəb gün hətta ən enerjili Oğlaqları da yoracaq. Nəinki, öz problemlərinizi həll etməli, üstəlik qohumlarınızın arasında yaranan fikir ayrılıqlarını da aradan qaldırmalı olursunuz - bu isə həddən artıq bezdirici işdir.



**Dolça** - Gün bir qədər gərgin keçəcək. Mənəvi tarazlığınızı itirir, mənfi emosiyalarınızın təsiri altına düşürsünüz. Üstəlik, bu dövrdə sizi idarə etmək asanlaşır və çox güman ki, düşmənləriniz bundan istifadə etməyə çalışacaqlar.



**Balıqlar** - Mənfi tendensiyaların güclü təsirinə baxmayaraq, səhər çağı müəyyən nailiyyətlər əldə edə bilərsiniz. Enerjiniz və sağlam düşüncəniz bütün işlərdə köməkçinizdir. Bunların sayəsində çətinlikləri aşa, səhvlərdən qurtula bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Bu ölkədə insanları elektron bilərzik vasitəsilə izləyəcəklər...

**Koronavirus pandemiyasından sonra əksər ölkədə xüsusi karantin rejimi elan olunub və insanlara evdən çıxmamaq tövsiyə edilib. Dövlətlər bu məqsədlə müxtəlif texnologiyalardan istifadəyə başlayıblar.**

Cənubi Koreya isə bu işdə elektron bilərzikdən yararlanacaq. "Ted.az" bildirir ki, Cənubi Koreya bir müddət öncə insanların evdən çıxmalarını məhdudlaşdırmaq məqsədilə mobil tətbiqdən istifadəyə başlayıb. Amma əksər insanın telefonu evdə qoyaraq yaşayış yerini tərk etdiyi məlum olub.

Cənubi Koreyanı elektron bilərzikdən istifadəyə təşviq edən də elə bu olub. Qeyd edək ki, Cənubi Koreyada 46 566 nəfər virusa görə karantinə alınıb. Karantin qaydalarını pozan və ya vəziyyətlə bağlı yanlış məlumat ötürənlərə 8172 dollar cərimə və ya həbs cəzası verilir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.